QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 103 (5575) 31 may 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. Qiyməti 40 qəpik

# Azərbaycan enerjinin şaxələndirilməsi layihələrini uğurla icra edir

*İlham Əliyev: "... "Cənub Qaz Dəhlizi" yeni enerji damarıdır, Avropanın enerji xəritəsini yenidən tərtib edən layihədir"*




Səh 2

Prezident İlham Əliyev: Biz iqtisadi islahatların aparılmasında ancaq öz daxili imkanlarımıza güvənirik



3

Donald Tramp: "Azərbaycanın böyük neft yataqları dünya enerji bazarına sabitlik gətirir"



7

Prezident Kitabxanasının "Ramiz Mehdiyev. Elektron kitabxana" layihəsi istifadəyə verilib



3

Akademik Arif Paşayev N.E.Jukovski adına Milli Aerokosmik Universitetinin fəxri professoru adına layiq görülüb



3

Əli Həsənov: "Cənub Qaz Dəhlizi Azərbaycanın liderliyi ilə həyata keçirilən qlobal və tarixi layihədir"



4

Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyinə həsr edilmiş Qadınların V Forumu keçirilib



5

13

Paşinyan siyasi qərarını verə bilmir - ən optimal variantı tapa bilməsə, Ermənistan məhv olacaq



10

Xaliq Bahadır: "Milli Şura qısır qurum olmaqdan qurtula bilmir"



16

PSJ Kriştiano Ronaldoya illik 45 milyon avro təklif edib



# Azərbaycan enerjinin şaxələndirilməsi layihələrini uğurla icra edir

## *İlham Əliyev: "... "Cənub Qaz Dəhlizi" yeni enerji damarıdır, Avropanın enerji xəritəsini yenidən tərtib edən layihədir"*

Azərbaycanın müstəqillik tarixinə daha bir əlamətdar hadisələrdən olan "Cənub Qaz Dəhlizi"nin açılışı ölkə başçısının qətiyyəti və siyasi iradəsinin nəticəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin müstəqil siyasəti, qətiyyəti ilə ərsəyə gələn "Cənub Qaz Dəhlizi"nin açılışı ölkəmizin siyasi mövqeyi, ictimai-iqtisadi və siyasi sabitliyin ən vacib amillərindəndir. Sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verən Azərbaycan, növbəti dəfə bütün dünyaya bəyan etdi ki, ölkəmizin təşəbbüsü ilə qlobal əhəmiyyətli layihələr həyata keçirilir. Ötən il Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılışı regionda sabitliyə, eləcə də, iqtisadi inkişafa böyük töhfə oldu. Bakı-Tbilisi-Qars Dəmir Yolu Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan, həmçinin, Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırdı. Azərbaycan Prezidenti İlham Əliyev Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılış mərasimindəki çıxışında bu yolun tikintisinin Azərbaycan-Gürcüstan-Türkiyə arasındakı dostluğun və qardaşlığın nəticəsi olduğunu vurğulamışdı: "Üç ölkə bütün sahələrdə uğurla əməkdaşlıq edirlər, bir-birini dəstəkləyirlər, ölkələrimiz və xalqlarımız üçün önəmli olan, dünya üçün önəmli olan layihələri icra edirlər. Bakı-Tbilisi-Qars bu layihələrin arasında öz layiqli yerini tutmuş bir layihədir".





"Cənub Qaz Dəhlizi"nin açılışı daha geniş miqyası əhatə edir. Beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən bu layihə energetika sahəsində, eləcə də, digər sahələrdə Avropada, bölgədə əməkdaşlığın dərinləşməsinə müsbət təsirini göstərəcək. Belə ki, "Cənub Qaz Dəhlizi"nin icrasında yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya kimi ölkələr iştirak edib. Geniş beynəlxalq əməkdaşlıq çərçivəsində ərsəyə gələn "Cənub Qaz Dəhlizi"ndə Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronın da adını qeyd etməliyik. Bu gün təkcə region üçün deyil, bütövlükdə, qlobal əhəmiyyətli layihə hesab edilən və reallaşdırılması birbaşa Azərbaycanın təşəbbüsü və iştirakı ilə gerçəkləşdirilən "Cənub Qaz Dəhlizi" enerji resurslarının şaxələndirilməsi işində çox önəmlidir. Səngəçal terminalında "Cənub Qaz Dəhlizi"nin rəsmi açılış mərasimində çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin vurğuladığı kimi, bu gün müstəqil Azərbaycan və bizim uğurlu neft-qaz siyasətimiz göstərir ki, ancaq müstəqillik şəraitində, müstəqillik dövründə Azərbaycan xalqı öz təbii ehtiyatlarından istifadə edə bilər, ancaq müstəqillik dövründə Azərbaycan uğurla inkişaf edə bilər: "Bu gün biz müstəqil dövlət kimi ayaqda möhkəm dayanmışıq, ölkə qarşısında duran bütün vəzifələri uğurla icra edirik, belə nəhəng layihələri tərəfdaşlarımızla birlikdə icra edirik və Avropanın enerji xəritəsini yenidən tərtib edirik".

### AZƏRBAYCAN BEYNƏLXALQ ENERJİ BAZARINDA İŞTİRAKÇI ÖLKƏYƏ ÇEVRİLİB

Ulu Öndər Heydər Əliyevin neft strategiyasının ən böyük uğuru sayılan "Əsrin Müqaviləsi"nin imzalanması müstəqil Azərbaycanın neft salnaməsinə əbədi həkk olundu. Azərbaycan müstəqillik qazandığı ilk illərdə ölkə idarəolunmaz vəziyyətdə idi, xaos, anarxiya və böhran hökm sürürdü. Bütün sahələrdə tənəzzül yaşanılırdı. O cümlədən də, neft sənayesi tamamilə tənəzzülə uğramışdı. Cənab Prezident yaranmış vəziyyəti xarakterizə edərkən, Azərbaycanın müstəqil siyasət apara bilmədiyini diqqətə çatdırıb. Azərbaycan xalqının təkidi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkənin ictimai-siyasi həyatında yeni bir dövrün başlanmasına səbəb oldu. Cənab Prezidentin çıxışında vurğuladığı kimi, "Biz əgər tarixə baxsaq, görərik ki, məhz o vaxtdan bu günə qədər Azərbaycan inamla inkişaf edir, ölkə qarşısında duran bütün vəzifələr uğurla icra edilir və ölkə iqtisadiyyatının əsas hissəsini təşkil edən neft-qaz sektorumuz da inkişaf edir". 1994-cü il sentyabrın 20-də imzalanan və "Əsrin Müqaviləsi" kimi təşəkkül tapan neft müqaviləsi Azərbaycanın müstəqillik tarixində imzalanan ən önəmli və həyati dəyərə malik beynəlxalq müqavilələrdəndir. Bu müqavilə müasir Azərbaycanın inkişaf perspektivləri baxımından, o cümlədən, iqtisadiyyatın dirçəldilməsi və şaxələndirilməsi prosesində olduqca mühüm rola malikdir. Tarixi müqavilə müasir və qüdrətli Azərbaycanın təməlini möhkəmlətdi. Ölkənin bu gününün və gələcəyinin uğurlu inkişafına yol açdı, beynəlxalq aləmdə nüfuzunu xeyli yüksəltdi. İlkin neftin hasil olunması Azərbaycanı dünyanın neft ixrac edən ölkəsinə çevirdi. Təbii ki, Azərbaycan neftinin xaricə çıxarılması birbaşa Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Bu gün isə Azərbaycan Prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti nəticəsində, neft və qazın bir neçə kəmər vasitəsi ilə Azərbaycandan Avropaya çıxarılması təmin edilib. Müqavilənin imzalanmasından ötən 24 il ərzində ölkənin sosial-iqtisadi göstəriciləri kifayət qədər dəyişib. Həmin tarixi müqavilədən 20 il sonra "Cənub Qaz Dəhlizi"nin təməli qoyuldu. Təbii ki, həyata keçirilən layihələr beynəlxalq əməkdaşlıq nəticəsində mümkünə çevrilib. "Azərbaycan, Gürcüstan və Türkiyə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər önəmli layihələri, o cümlədən, nəqliyyat sahəsində Bakı-Tbilisi-Qars layihəsini icra edərkən, artıq çox güclü üçtərəfli regional əməkdaşlıq formatı yaratmışlar", - deyən Cənab Prezident bu layihələrin icra edilməsində bu üç ölkənin birgə səylərinin xüsusi yer tutduğunu bildirib: "Mən bu gün fürsətdən istifadə edərək həm Türkiyə, həm Gürcüstan rəhbərliyinə əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Mən bu gün Amerika Birləşmiş Ştatlarının hökumətinə təşəkkürümü bildirmək istəyirəm. Çünki Amerika Birləşmiş Ştatları bütün layihələrimizdə bizə böyük dəstək olub, bizə kömək göstərib, həm siyasi dəstək, həm mənəvi dəstək".

Prezident İlham Əliyev onu da bildirib ki, geniş beynəlxalq əməkdaşlıq çərçivəsində həyata keçirilən bu layihəyə əminliyini ifadə etdi ki, gələcəkdə, nəinki energetika sahəsində, bütün başqa sahələrdə Avropada və Azərbaycanda bizim bölgədə əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcək: "Cənub Qaz Dəhlizi" enerji resurslarının şaxələndirilməsi işində də çox önəmli layihədir və hesab edirəm ki, əvəzolunmaz layihədir. Bu layihədə biz həm mənbələrin, həm marşrutların şaxələndirilməsini görürük. Çünki ancaq bu təqdirdə, biz tam mənada, enerji resurslarının şaxələndirilməsi haqqında danışa bilərik. Sadəcə olaraq, yeni marşrutların açılması və eyni mənbədən qidalanması tam mənada enerji şaxələndirilməsi məsələsi deyil. Biz isə, sözün əsl mənasında, enerji şaxələndirilməsi layihəsini icra edirik. Azərbaycan qazı yeni mənbədir və "Cənub Qaz Dəhlizi" yeni enerji damarıdır, Avropanın enerji xəritəsini yenidən tərtib edən layihədir".

Bu layihə ölkələr arasında ticari və iqtisadi əlaqələrin genişlənməsinə və bundan irəli gələn sabitliyə yönələn layihədir. Öz nəhəngliyi ilə seçilən "Cənub Qaz Dəhlizi" Xəzər dənizinin qaz resurslarını ilk dəfə birbaşa Avropa bazarlarına çıxararaq, bütöv regionun enerji xəritəsini dəyişəcək.

Bütün bu və ya digər layihələrin icrası ölkəmizdə hökm sürən sabitliyin, əmin-amanlığın və iqtisadi yüksəlişin məntiqi nəticəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb və Azərbaycan regional və irimiqyaslı layihələri uğurla icra edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Prezident İlham Əliyev: Biz iqtisadi islahatların aparılmasında ancaq öz daxili imkanlarımıza güvənirik

## *"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 60-cı kitabı çapdan çıxıb*




Bəzi ölkələrin dövlət borcu ümumi daxili məhsulun 100 faizini, ondan da çoxunu təşkil edir. Daim borc götürən ölkələr o borcu qaytarmalıdır. Belə olan halda, ilk növbədə, o borcun qaytarılması üçün sosial proqramların ixtisarı, maaşların kəsilməsi hesabına bunu etməyə çalışırlar. Ona görə iqtisadi inkişafın və iqtisadi tənəzzülün sosial-humanitar aspektləri çox ciddi təhlilə məruz qalmalıdır. Bizim təcrübəmiz ondan ibarətdir ki, biz iqtisadi islahatların aparılmasında ancaq öz daxili imkanlarımıza güvənirik.

AZƏRTAC xəbər verir ki, "İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxan 60-cı kitabında yer alan bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev 2013-cü il oktyabrın 31-də Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən III Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimində söyləyib. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 60-cı kitabındakı materiallar 2013-cü ilin oktyabr-dekabr aylarını əhatə edir.

Nəşrin bu cildində dövlətimizin başçısının III Bakı Beynəlxalq Humanitar Forumunda, "Şahdəniz-2" üzrə yekun investisiya qərarının imzalanması mərasimində iştirak etmək üçün ölkəmizə gəlmiş dövlət və hökumət rəsmiləri, nüfuzlu ictimai-siyasi və dövlət xadimləri, habelə ATƏT, İslam Əməkdaşlıq Təşkilatı və BP şirkətinin Bakıya səfər etmiş təmsilçiləri ilə görüşləri barədə materiallar toplanıb. Azərbaycan Respublikası Prezidentinin Türkiyəyə, Ukraynaya rəsmi, Avstriya Respublikasına, Litva Respublikasına işgüzar səfərləri, habelə Belarus Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı dövlətimizin başçısının keçirdiyi görüşlərə, mətbuata bəyanatlarına, sənədlərin imzalanma mərasiminə dair materiallar da 60-cı kitaba daxil edilib.

Bu cilddə dövlətimizin başçısının Bakının ev sahibliyi etdiyi bir sıra nüfuzlu tədbirlərin iştirakçılarına, o cümlədən ISESCO-ya üzv ölkələrin Uşaq Məsələləri üzrə Məsul Nazirlərinin IV Konfransının, UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin VIII Sessiyasının, Azərbaycan Müəllimlərinin XIV Qurultayının, "Rus İcması - 20 il Yeni Azərbaycanın Xalqlar Ailəsində" Respublika Konfransının və digər tədbirlərin iştirakçılarına müraciətləri yer alıb. Habelə Azərbaycan Prezidentinin Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzinin açılışı mərasimində iştirakına, "Bakutel-2013" XIX Azərbaycan Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları sərgisində və digər tədbirlərdə iştirakından bəhs edən materiallar, müxtəlif çıxış və nitqlərinin mətnləri verilib. Kitabda Prezident İlham Əliyevin Qusarda və Qubada turizm infrastruktur obyektlərinin, Bakıda nəqliyyat infrastrukturu ilə bağlı açılış mərasimlərində iştirakına dair materiallar da toplanıb. Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri də daxil edilib. "Azərnəşr" tərəfindən buraxılan 60-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Ərəb mətbuatı Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimini geniş işıqlandırıb



Birləşmiş Ərəb Əmirliklərinin "Zawya" qəzeti, "24ae", "dotemirates", "mebusines" elektron nəşrləri, İordaniyanın "Al-Ray" qəzeti, "Royah", Küveytin "alwasat" internet portalı və digər ərəb nəşrləri mayın 29-da Bakıda Səngəçal terminalında Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimindən məlumatlar dərc ediblər. AZƏRTAC-ın məlumatına görə, ərəb KİV-ləri ölkə Prezidenti İlham Əliyevin Cənub Qaz Dəhlizinin rəsmi açılış mərasimində iştirak etməsindən, bu qlobal layihənin Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi və qazla təmin edilməsi üçün böyük əhəmiyyətindən yazırlar.

Məqalələrdə qeyd olunur ki, Cənub Qaz Dəhlizi nəhəng infrastruktur layihəsidir və onun icra edilməsinə 40 milyard dollardan çox sərmayə qoyulub. Cənub Qaz Dəhlizinin icrası beynəlxalq əməkdaşlıq sayəsində başa gəlib. Azərbaycan qazı təxminən 3500 kilometr uzunluğunda boru kəməri vasitəsilə Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya və İtaliya ərazisinə nəql olunacaq. Azərbaycan Prezidenti İlham Əliyevin dünyanın nəhəng qaz mənbəyi olan "Şahdəniz" yatağından Avropa bazarlarına qazın nəqli üçün nəzərdə tutulmuş Cənub Qaz Dəhlizinin həyata keçirilməsini "Avropanın enerji xəritəsini yenidən tərtib edən layihəsi" adlandırması oxucuların diqqətinə çatdırılıb.

# Akademik Arif Paşayev N.E.Jukovski adına Milli Aerokosmik Universitetinin fəxri professoru adına layiq görülüb



***N.E.Jukovski adına Milli Aerokosmik Universiteti - Xarkov Aviasiya İnstitutunun Elmi Şurasının qərarı ilə Milli Aviasiya Akademiyasının rektoru, Azərbaycanın görkəmli alimi, akademik Arif Paşayev aviasiya və texnika elminin inkişafındakı böyük xidmətlərinə görə universitetin fəxri professoru adına layiq görülüb.***

Xarkov Aviasiya İnstitutunun məlumatında qeyd olunur ki, N.E.Jukovski adına Milli Aerokosmik Universiteti Arif Paşayev kimi fəxri professoru olmasından qürur hissi keçirir. Arif Paşayev tanınmış ictimai xadim, yüksək elmi-praktiki potensiala malik olan, Azərbaycanda aviasiya təhsilinin müasir səviyyədə inkişafı üçün gərgin əmək sərf edən alimdir.

1957-ci ildə Ukraynanın Odessa Rabitə Universitetini (keçmiş Odessa Elektrotexnika Rabitə İnstitutu) radiofizik ixtisası üzrə bitirib. Həmin universitetin və Ukrayna Milli Aviasiya Universitetinin fəxri doktoru, Ukraynadakı Azərbaycan diasporunun fəxri üzvüdür. Arif Paşayev "Mədəniyyət səfiri" kimi hər iki ölkənin elmi-mədəni, ictimai əlaqələrinin inkişafında səmərəli fəaliyyəti ilə nümunələr göstərir.

"N.E.Jukovski adına Milli Aerokosmik Universiteti - Xarkov Aviasiya İnstitutu Elmi Şurasının Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi yubileyi günlərinə təsadüf edən belə bir elmi qərarı bir daha sübut edir ki, Arif Paşayev dünyada tanınan və Azərbaycana şöhrət qazandıran alimdir. Onun çoxillik fəaliyyəti nəticəsində mühüm elmi nailiyyətlər əldə edilib. Tanınmış ictimai xadim Arif Paşayevin Azərbaycan ilə Ukrayna arasında elmi mübadilənin və təcrübə mübadiləsinin inkişafında da böyük xidmətləri var", - deyə universitetin məlumatında deyilir.

# Prezident Kitabxanasının "Ramiz Mehdiyev. Elektron kitabxana" layihəsi istifadəyə verilib




Mayın 30-da Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasında görkəmli dövlət və elm xadimi Ramiz Mehdiyevin ictimai-siyasi fəaliyyətini və elmi irsini əks etdirən "Ramiz Mehdiyev. Elektron kitabxana" layihəsi istifadəçilərin ixtiyarına verilib. AZƏRTAC xəbər verir ki, elektron layihə beş fəsildən ibarətdir. "Bioqrafiya" adlanan birinci fəsildə Ramiz Mehdiyevin qısa tərcümeyi-halı öz əksini tapıb.

Layihənin "Xronologiya" adlanan ikinci fəslində Ramiz Mehdiyevin həyat və fəaliyyətinin mühüm məqamları, ictimai-siyasi fəaliyyəti, elm sahəsində atdığı addımlar, təltifləri və mükafatları haqqında məlumatlar xronoloji ardıcıllıqla işıqlandırılıb.

Akademik Ramiz Mehdiyevin Azərbaycanın dövlətçilik və fəlsəfi fikir tarixinə, müstəqil Azərbaycanda baş verən mühüm ictimai-siyasi proseslərə, qloballaşan dünyanın problemlərinə, yeni dünya düzəninə, ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin dövlət müstəqilliyinin qorunması və ölkəmizin dinamik inkişafı istiqamətində gördükləri titanik fəaliyyətlərinə aid qələmə aldığı kitabların elektron versiyaları "E-Kitablar" fəslində istifadəçilərə təqdim edilir. Bu fəsildə akademik Ramiz Mehdiyevin millətlərarası münasibətlərə, erməni ideallarına, azərbaycanlıların məruz qoyulduqları soyqırımı gerçəkliklərinə aid əsərlərinin elektron versiyaları da toplanılıb. Bu fəsildə, həmçinin müəllifin müxtəlif dillərdə çap edilən kitabları oxuculara təqdim edilir.

Layihənin dördüncü fəsli "E-Məqalələr" adlanır. Bu fəslin "Elmi məqalələr" adlanan bölməsində akademik Ramiz Mehdiyevin dövri mətbuatda və elmi məcmuələrdə müxtəlif dillərdə dərc edilən məqalələrinin elektron versiyaları, həmin fəslin "Haqqında" adlanan bölməsində isə akademikin əsərləri haqqında yazılan məqalələrin və resenziyaların elektron versiyaları öz əksini tapır.

Elektron kitabxananın sonuncu fəsli olan "Biblioqrafiya" fəslinin "Əsərləri" adlanan bölməsində Ramiz Mehdiyevin əsərlərinin, redaktoru və buraxılışına məsul olduğu kitabların, çıxışlarının, məruzələrinin, müsahibələrinin və məqalələrinin biblioqrafik təsviri verilir. Həmin fəslin "Haqqında" adlanan bölməsində isə akademikin haqqında yazılan kitabların biblioqrafik təsviri öz əksini tapır. 2005-ci ildən bu günədək akademikin haqqında dərc edilən məqalələrin Azərbaycan və rus dillərində biblioqrafiyası "Məqalələr" adlanan bölmədə ayrı-ayrı illər üzrə toplanılıb. http://ramizmehdiyev.preslib.az/ domenində yerləşdirilən elektron kitabxananın materialları müntəzəm olaraq yenilənilir.

# Əli Həsənov: "Cənub Qaz Dəhlizi Azərbaycanın liderliyi ilə həyata keçirilən qlobal və tarixi layihədir"

*Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov mayın 29-da Bakıda rəsmi açılışı keçirilən Cənub Qaz Dəhlizinin əhəmiyyəti ilə bağlı Facebook sosial şəbəkəsindəki səhifəsində status paylaşıb. AZƏRTAC statusu təqdim edir.*



x x x

### Cənub Qaz Dəhlizinin qısa tarixi və texniki göstəriciləri

Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra onun nəhəng neft və qaz ehtiyatlarının hasilatı və dünya bazarına çıxarılması gündəlikdə duran ən mühüm məsələlərdən biri olub. Ümummilli lider Heydər Əliyevin böyük səyləri nəticəsində 1994-cü il sentyabrın 20-də "Əsrin kontraktı"nın imzalanması Azərbaycanın güclü iqtisadi potensialının formalaşdırılmasında müstəsna rol oynayıb, regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə böyük töhfə verib. Azərbaycanın neft ehtiyatlarının dünya bazarına çıxarılması ilə bağlı məsələlər həll edildikdən və 2006-cı ildə Bakı Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildikdən sonra böyük Azərbaycan qazının Avropa qitəsinə nəqli ciddi müzakirə mövzusuna çevrilib.

2007-ci il iyulun 3-də Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağından hasil edilən təbii yanacaq Bakı-Tbilisi-Ərzurum qaz boru kəməri ilə Türkiyənin qaz kəmərləri sisteminə daxil olub. NABUCCO da daxil olmaqla təklif edilən müxtəlif variantlar ətrafında aparılan çoxsaylı müzakirələr nəticə vermədiyinə görə Azərbaycan növbəti dəfə öz liderlik keyfiyyətlərini nümayiş etdirib və yeni "Cənub Qaz Dəhlizi" ideyasını irəli sürüb.

2011-ci ildə Avropa İttifaqı ilə Azərbaycan Xəzərdən Avropaya birbaşa qaz nəql edən marşrutların yaradılmasını dəstəkləyən Birgə Bəyanat - strateji enerji əməkdaşlığına dair memorandum imzalayıb və bununla da "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşdırılması ilə bağlı tarixi addım atılıb. 2012-ci il iyunun 26-da Azərbaycan Respublikası Hökuməti və Türkiyə Respublikası Hökuməti arasında Trans-Anadolu təbii qaz boru kəməri sisteminə dair Saziş imzalanıb və hər iki dövlətin qanunverici orqanları həmin Sazişi ratifikasiya edib. 2013-cü il iyunun 30-da isə TAP layihəsi üzrə beynəlxalq saziş imzalanıb. TAP və Şahdəniz konsorsiumlarının imzaladığı sazişlə ilk dəfə olaraq Azərbaycan qazı Avropa bazarına birbaşa çıxış əldə edib.

2015-ci ildə Cənub Qaz Dəhlizi Məşvərət Şurasının birinci iclası, sonrakı illərdə isə daha üç toplantı keçirilib və layihənin reallaşdırılması ilə bağlı mühüm qərarlar qəbul olunub.

Beləliklə, Azərbaycanın liderliyi və beynəlxalq tərəfdaşları ilə birgə səyləri nəticəsində Cənub Qaz Dəhlizinin 4 komponenti - "Şahdəniz-2", Azərbaycandan başlayaraq Gürcüstan-Türkiyə sərhədinə kimi uzanan Cənubi Qafqaz Boru Kəməri, Türkiyə ərazisindən keçən TANAP və Yunanıstan, Albaniya və İtaliyanı birləşdirən TAP-la bağlı prinsipial razılaşmalar əldə olunub və layihənin gerçəkləşdirilməsinə başlanılıb.

Cənub Qaz Dəhlizinin uzunluğu 3,5 min kilometr təşkil edir. Kəmər 1,2 trilyon kubmetr ehtiyata malik "Şahdəniz" yatağından qazın hasilatını və Avropa bazarına ötürülməsini təmin edəcək. Layihə 40 milyard dollar həcmində dəyərləndirilir.

İyunun 12-də TANAP-ın rəsmi açılışından sonra Türkiyə bazarına 6 milyard kubmetr qaz ötürüləcək, 2020-ci ildə isə daha 20 milyard kubmetr qaz Avropaya nəql ediləcək. 2026-cı ilə kimi kəmərin ötürmə qabiliyyətinin 31 milyard kubmetrədək artırılması mümkündür. Növbəti mərhələdə Türkmənistan, İran və İraq qazının bu kəmər vasitəsilə dünya bazarına çıxarılması məsələsi nəzərdən keçirilə bilər.

Məhz Prezident İlham Əliyevin qətiyyəti, milli maraqlara əsaslanan düşünülmüş və prinsipial siyasəti Cənub Qaz Dəhlizinin həyata keçirilməsini təmin edib.

### Cənub Qaz Dəhlizi Azərbaycanın liderliyi ilə həyata keçirilən nəhəng beynəlxalq layihədir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Cənub Qaz Dəhlizinin açılış mərasimində qeyd edib ki, bu layihələrin həyata keçirilməsi beynəlxalq əməkdaşlıq olmadan mümkün olmazdı. Cənub Qaz Dəhlizinin icrasında yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edir, eyni zamanda, üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqronun da növbəti mərhələdə bu layihəyə qoşulacağı gözlənilir. Bu, artıq layihənin qlobal xarakterini və böyük beynəlxalq əməkdaşlıq platforması üzərində ucaldığını göstərir.

Cənub Qaz Dəhlizi ilə nəql olunan təbii yanacağın 9 Avropa şirkəti tərəfindən alınması nəzərdə tutulub, Bunlar ingilis-holland "Shell" şirkəti, Bolqarıstanın "Bulgargaz", Yunanıstanın "DEPA", Almaniyanın "Uniper", Fransanın "Engie", İtaliyanın "Hera Trading", "Edison" və "Enel" və İsveçrənin "AXPO" şirkətləridir.

Azərbaycan, Gürcüstan və Türkiyə arasında olan əməkdaşlıq Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər önəmli layihələrin gerçəkləşməsində baza rolunu oynayır. Digər mühüm enerji layihələrində olduğu kimi, ABŞ Cənub Qaz Dəhlizinin reallaşmasına siyasi və mənəvi dəstək göstərib və hərtərəfli kömək edib.

ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı son 3 məktubda bildirib:

- Azərbaycan və ABŞ mürəkkəb regional çağırışların həlli üçün birgə işləyərək sıx tərəfdaşlıq edirlər;

- Tramp təhlükəsizlik və terrorizmlə mübarizə sahəsində ikitərəfli əməkdaşlığı, habelə uzunmüddətli ticarət əlaqələrini yüksək qiymətləndirir;

- Qarşıdan gələn aylar Dağlıq Qarabağ münaqişəsinin həlli üçün imkanlar açacaq, bu isə ABŞ-Azərbaycan əməkdaşlığının genişləndirilməsinə daha yaxşı şərait yaradacaq;

- Azərbaycan firavan və qlobal iqtisadiyyata bağlı ölkədir;

- Azərbaycanın böyük neft yataqları dünya enerji bazarına sabitlik gətirir;

- Azərbaycanın qaz hasilatı Türkiyə və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verəcək;

- ABŞ Azərbaycanla 30 illik əməkdaşlığın Cənub Qaz Dəhlizi kimi mühüm nailiyyətini Azərbaycanla birlikdə qeyd edir;

- ABŞ Azərbaycanın enerji layihələrinin uğurunu möhkəmləndirəcək iqtisadi və hüquqi islahatların davam etdirilməsini dəstəkləyir;

- Bizim böyük dövlətlərimizin və Qafqaz regionunun daha firavan, dinc və təhlükəsiz olması naminə Sizinlə birgə işləmək əzmindəyəm.

Göründüyü kimi, Prezident Donald Tramp ABŞ ilə Azərbaycan arasında mövcud olan əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirir və bu əməkdaşlığın davam etdirilməsinə sadiq? olduğunu bəyan edir.

ABŞ Azərbaycanı regionun güclü, firavan, qlobal iqtisadiyyata bağlı, təhlükəsizlik və sabitliyin təmin olunmasına mühüm töhfə verən ölkəsi kimi qiymətləndirir. Prezident Donald Tramp bundan sonrakı dövrdə də Prezident İlham Əliyevlə işləmək əzmini ifadə edir.

ABŞ ən yüksək səviyyədə Azərbaycanla əlaqələrinin dəyərini xüsusi qeyd edir və birgə əməkdaşlığın davam etdirilməsindən məmnunluğunu açıq göstərir.

Lakin Amerikada fəaliyyət göstərən erməni lobbisi və onun təsiri altında olan Kristofer Smit, Bred Şerman kimi konqresmenlər hər vəchlə bu əməkdaşlığa xələl gətirməyə və iki dövlət arasında strateji tərəfdaşlıq əlaqələrini pozmağa çalışırlar. Onlar Amerika dövlətinin deyil, erməni lobbisinin və Ermənistanın maraqlarını müdafiə və ifadə edirlər. Bu tipli şəxslərin Amerikanın dövlət siyasəti və ABŞ rəsmilərinin Azərbaycana müsbət münasibəti ilə heç bir əlaqəsi yoxdur. Böyük Britaniya Cənub Qaz Dəhlizinin reallaşmasına güclü dəstək verib, BP şirkəti energetika sahəsində həyata keçirilən çoxsaylı layihələrin əsas investoru olub.

Avropa İttifaqı Cənub Qaz Dəhlizi və digər enerji layihələrinin icrasında çox önəmli rol oynayıb. 2011-ci ildə Bakıda Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizi haqqında Birgə Bəyannamənin imzalanması ilə bu mühüm layihənin əsası qoyulub, sonrakı dövrdə də Avropa İttifaqı bu çərçivədə həyata keçirilən tədbirlərə güclü dəstək verib.

### Cənub Qaz Dəhlizinin əhəmiyyəti

Cənub Qaz Dəhlizi:

- Qarşıdan gələn 100 il ərzində Azərbaycan xalqına xidmət edəcək və milli iqtisadiyyatın inkişafında mühüm amil olacaq;

- Azərbaycanın regionda və Avropada əhəmiyyətinin artmasını, Azərbaycanla Qərb arasında münasibətlərin daha yüksək pilləyə qalxmasını şərtləndirəcək. ABŞ Prezidenti D.Tramp bildirib: "Enerji sahəsində ABŞ-Azərbaycan əməkdaşlığı bu il ilk qazın Cənub Qaz Dəhlizi vasitəsilə nəqli sayəsində zirvəyə yüksəlib";

- Azərbaycanın təkcə enerji ixrac edən ölkə kimi deyil, həm də onu nəql edən və tranzit ölkə kimi əhəmiyyəti artacaq;

- Avropanın enerji təchizatının şaxələndirilməsində ciddi amilə çevriləcək;

- Region ölkələrinin öz enerji resurslarını dünya bazarına çıxarmaq üçün yeni mənbə rolunu oynayacaq;

- Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində böyük rol oynayacaq;

- Dövlətlər və xalqlar arasında qarşılıqlı əməkdaşlığın, işgüzar əlaqələrin inkişafına töhfə verəcək;

- Regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasına ciddi təsir göstərəcək;

- Layihədə iştirak edən bütün ölkələr, şirkətlər mənfəət əldə edəcək, yeni iş yerləri yaradılacaq və insanların rifahının yüksəlməsinə müsbət təsir göstərəcək. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, Cənub Qaz Dəhlizi Azərbaycanın liderliyi ilə həyata keçirilən, tarixi əhəmiyyətə malik, xalqımızın firavan gələcəyini təmin edən, regionda, Avropada təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət göstərən qlobal layihədir.

## Məhəmməd Barkindo: "Cənub Qaz Dəhlizi fundamental sürətdə enerji landşaftını dəyişəcək"

Cənub Qaz Dəhlizi fundamental sürətdə enerji landşaftını dəyişəcək. AZƏRTAC xəbər verir ki, bu sözləri mayın 30-da Bakıda keçirilən XXV yubiley Beynəlxalq "Caspian Oil and Gas" konfransının "Dayanıqlı gələcəyin inkişafı üçün əsas faktorlar: konsepsiya və innovativlik" adlı plenar sessiyasındakı çıxışında Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Sanusi Barkindo deyib. "İki ay ərzində artıq ikinci dəfədir ki, Azərbaycana səfər edirəm. Bakı neft sənayesinin beşiyi, sivilizasiyanın inkişafına təkan verən və öz inkişafı ilə seçilən bir şəhərdir. Azərbaycan neft və qaz sənayesinin sürətlə inkişaf etdiyi bir ölkədir. Bu ölkə 1994-cü ildə çox sərfəli neft müqaviləsi olan "Əsrin müqaviləsi"nin imzalanması ilə nüfuzlu beynəlxalq şirkətlərlə əməkdaşlığa başlayıb. Həmin vaxtdan indiyədək neft sənayesində kifayət qədər nəzərəçarpan artım müşahidə edilib. Hazırda investorlar da Azərbaycanın neft və qaz sektoruna mühüm töhfə verə biləcəyini dilə gətirir, ölkənin bu istiqamətdəki potensialını vurğulayır", - deyə OPEC-in baş katibi bildirib.




M.Barkindo qeyd edib: "Bu nailiyyətlər "Şahdəniz" yatağının fonunda əyanilik qazanır. Layihənin ikinci fazası - dünən rəsmi açılışı olan Cənub Qaz Dəhlizi ən iri enerji layihələrindən biridir. Bu layihə ölkə iqtisadiyyatının inkişafına, regiona və dünyaya müsbət töhfəsini verəcək. Cənub Qaz Dəhlizi fundamental sürətdə bizim enerji landşaftımızı dəyişəcək".

# Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyinə həsr edilmiş Qadınların V Forumu keçirilib






***Mayın 30-da Bakı Konqres Mərkəzində Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyinə həsr edilmiş Qadınların V Forumu öz işinə başlayıb. AZƏRTAC xəbər verir ki, Forumda dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələri, QHT təmsilçiləri, ictimai-siyasi xadimlər, respublikanın bütün regionlarından nümayəndələr iştirak edirlər.***








Forumun keçirilməsində məqsəd 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti dövründə bütün vətəndaşların bərabər hüquqlarının tanınmasının, xüsusilə qadınlara seçki hüququnun verilməsinin 100 illiyinin qeyd olunması, son 100 ildə qadın hüquqlarının müdafiəsi sahəsində qazanılmış nailiyyətlərin müzakirəsi, qarşıda duran vəzifələrin müəyyənləşdirilməsidir.

Əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Forum iştirakçılarına təbrik məktubunu oxuyub.

Sonra Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Forum iştirakçılarına təbrik məktubunu oxuyub. Forumda Azərbaycanda qadın hərəkatına dair film nümayiş etdirilib.



Tədbirin açılış mərasimində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxış edərək bildirib ki, Azərbaycanda gender bərbərliyinin təmin edilməsi üçün önəmli addımlar atılır, qadın hüquqlarının qorunmasına hər zaman diqqət yetirilir. Hicran Hüseynova Azərbaycan Xalq Cümhuriyyətinin qadınlara verdiyi hüquqlardan danışıb. O vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində bu gün Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisi kimi müasir müstəqil Azərbaycanda demokratik dövlət quruculuğu daha da inkişaf etdirilir. Bütün bunların fonunda qadın hüquqlarının qorunması məsələsi də öz aktuallığını saxlayıb. Bu gün müstəqil Azərbaycanın qadınları parlamentdə, icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsil, səhiyyə sahələrinə, biznes strukturlarında, kənd təsərrüfatında, orduda, idmanda, hüquq mühafizə orqanlarında, İKT sahəsində kişilərlə bərabər vəzifələrdə təmsil olunurlar. Birinci vitse-prezident Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti nəticəsində Azərbaycan qadınlarının ölkənin ictimai-siyasi həyatında fəal iştirakına maraq artıb. Qadınlarımız müxtəlif beynəlxalq təşkilatlarda təmsil olunur, ölkəmizin maraqlarını müdafiə edirlər. Alim qadınlarımız dünya elminə töhfələr verirlər. Beynəlxalq təşkilatlar Azərbaycanda gender bərabərliyini xüsusi qeyd edirlər.

Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsinin təsadüfi olmadığını deyərək, bunu Azərbaycan dövlətinin, xüsusilə Prezident İlham Əliyevin tariximizin çox maraqlı və əhəmiyyətli hissəsi olan Cümhuriyyətə, onun tarixinə dərin hörmət və ehtiramının ifadəsi kimi qiymətləndirib. Diqqətə çatdırıb ki, Cümhuriyyətin qadınlara seçmək və seçilmək hüququnu verməsi təkcə müsəlman və Şərq cəmiyyətləri üçün əhəmiyyətli olmayıb. Çünki o zaman hətta özünü demokratiyanın beşiyi elan edən və sözün həqiqi mənasında, müasir demokratiyanın əsaslarını yaradan cəmiyyətlər qadınların seçmək və seçilmək hüququnu, səsvermə hüququnu tanımaq istiqamətində addım atmamışdılar.

Müasir müstəqil Azərbaycan Respublikasının Cümhuriyyətin varisi kimi onun ənənələrini davam etdirdiyini deyən Baş nazirin müavini qadınların cəmiyyət həyatında fəallığını genişləndirmək məqsədilə qarşıya qoyulan vəzifələrdən də danışıb. Qeyd edib ki, Azərbaycan cəmiyyətinin inkişafına qadınlar xüsusi töhfələrini verirlər. Bir çox sahələr, məsələn səhiyyə, təhsil sahələrində qadınların iştirak payı kişilərdən çoxdur. Eləcə də bir sıra ixtisaslar üzrə təhsil alan qızların sayı oğlanlardan çoxdur. Bu da Azərbaycanda qadın hərəkatının nə qədər geniş inkişaf etdiyini bir daha təsdiqləyir. Əli Əhmədov qeyd edib ki, bütövlükdə idarəçilik sahəsində çalışan qadınlarımızın fəaliyyətinin genişləndirilməsi qarşıda duran vəzifələrdəndir.

Ardı Səh. 6

# Azərbaycan qadınına seçki hüququnun verilməsinin 100 illiyinə həsr edilmiş Qadınların V Forumu keçirilib

Əvvəli-Səh-5

Milli Məclisin sədr müavini Bahar Muradova tariximizə nəzər salaraq müsəlman Şərqində qadınlara ilk dəfə seçib-seçilmək hüququnun məhz Azərbaycanda verilməsinin qürur hissi doğurduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti qısa müddətdə mövcud olsa da, bütün vətəndaşlara azadlığın nə demək olduğunu anladıb, savadsızlığın ləğv olunması, qadınların ictimai-siyasi həyatda fəal iştirakı üçün onları hüquqlarla təmin edib. Bahar Muradova Cümhuriyyətinin varisi olan müasir Azərbaycan dövlətinin qadınların ictimai-siyasi həyatda təmsilçiliyinin artması istiqamətində lazımi tədbirlər gördüyünü bildirib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi, BMT İnkişaf Proqramının rezident nümayəndəsi Qulam İshaqzai Azərbaycan



Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə təbriklərini çatdıraraq, Cümhuriyyətin fəaliyyətinin ölkə tarixində dönüş nöqtəsi olduğunu vurğulayıb. Gender bərabərliyinin BMT-nin hədəflərindən biri olduğunu qeyd edən Qulam İshaqzai Azərbaycanda bu sahədə nailiyyətlərdən danışıb.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson qadınlara seçki hüququnun verilməsinin cəmiyyətin dəyişməsinə səbəb olduğunu söyləyib. O, Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyətini xüsusilə qeyd edib. Vurğulayıb ki, Azərbaycan öz tarixi ilə fəxr edə bilər. Baronessa Emma Nikolson qeyd edib ki, qadınların ölkənin siyasi həyatında iştirakı demokratiyanın təmin edilməsində əsas şərtlərdən biridir. Konstitusiya Məhkəməsinin sədr müavini Sona Salmanova Azərbaycan qadınının milli dəyərlərimizin formalaşmasındakı rolundan danışıb.

Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova muxtar respublikada qadınlar və dövlət qurumlarında təmsilçiliyindən bəhs edib.

Forum çərçivəsində "Ekologiyada qadınlar və qida təhlükəsizliyi", "Bərabərliyin 100 illiyi: tarixin nailiyyətləri və müasirlik", "İqtisadiyyatda qadınlar: yeni imkanlar və çağırışlar", "Qadınlar və İKT: reallıq və perspektivlər" mövzularında panel iclaslar keçirilib.

Daha sonra panellərin moderatorları - BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Mələk Çakmak, BMT baş katibinin münaqişələr zamanı cinsi zorakılıq məsələləri üzrə xüsusi nümayəndəsi Pramila Patten, iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova və Prezident yanında Strateji Araşdırmalar Mərkəzinin direktor müavini Gülşən Paşayevanın hesabatları dinlənilib.

Forumun yekununda qətnamə qəbul edilib. Qətnaməni Milli Məclisin elm və təhsil komitəsinin üzvü, Gəncə Dövlət Universitetinin prorektoru Pərvin Kərimzadə səsləndirib. Forum iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciəti qəbul edilib.

Müraciəti Bakı Slavyan Universitetinin rektoru, Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının sədri Nurlana Əliyeva səsləndirib. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova tədbirə yekun vurub. Forum bədii proqramla başa çatıb.






# "Cənub Qaz Dəhlizi daha böyük perspektivlərə malikdir"



"Azərbaycan artıq dünyanın ən böyük enerji dəhlizlərindən birinə çevrilir. ABŞ prezidenti Donald Trampın Dövlət başçısı İlham Əliyevə göndərdiyi təbrik məktubunda da açıq şəkildə qeyd olunur ki, Azərbaycanın dünya enerji balansının tənzimlənməsində rolu durmadan artır və strateji əhəmiyyət kəsb etməyə başlayır". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Qabil Hüseynli deyib. Politoloq qeyd edib ki, ABŞ öz müttəfiqlərinə edilən enerji dəstəyini özünə edilən enerji dəstəyi kimi qiymətləndirir: "Çünki, Avropanın enerji layihələrinin böyük bir qismi Azərbaycanın üzərinə düşür ki, bu da ABŞ tərəfindən yüksək qiymətləndirilir. ABŞ dövlət başçısının Azərbaycan prezidentinə göndərdiyi son 2 təbrik məktubunda da bunlar xüsusi olaraq vurğulanır".

Cənub Qaz Dəhlizi layihəsi gələcəkdə daha böyük perspektivlərə malik olduğunu deyən Q. Hüseynli söyləyib ki, bununla da Azərbaycan ərazisinin dünyanın enerji dəhlizinə çevrilmək şansı daha da artmış olur. Cənub Qaz Dəhlizinin reallaşmasında Böyük Britaniyanın dəstək verməsini müsbət dəyərləndirən Q. Hüseynli söyləyib ki, BP-nin ABŞ və Böyük Britaniyanın ortaq şirkəti olaraq Azərbaycandakı bütün enerji və qaz layihələrinin operatoru olması təkcə sözügedən ölkələrin deyil, digər Avropa dövlətlərinin də Azərbaycan tərəfindən həyata keçirilən enerji layihələrinin ciddi dəstəklənməsinə səbəb olub. Politoloq əlavə edib ki, gələcəkdə "Şahdəniz -2", istismara hazırlanan neft və qaz layihələri var ki, onların hər biri Azərbaycanın dünyadakı enerji mənbəyi rolunu durmadan artmasına gətirib çıxaracaq.

# Donald Tramp: “Azərbaycanın böyük neft yataqları dünya enerji bazarına sabitlik gətirir”

İlk müstəqil dövlətinin 100 illiyini qeyd edən Azərbaycan indi daha firavan və qlobal iqtisadiyyata bağlı bir ölkədir. Azərbaycanın böyük neft yataqları dünya enerji bazarına sabitlik gətirir. Sizin qaz hasilatınız isə Türkiyə və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsinə töhfə verəcəkdir.



AZƏRTAC xəbər verir ki, bu fikirlər Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məktubunda yer alıb.

Məktubda Prezident Donald Tramp Prezident İlham Əliyevi və Azərbaycan xalqını Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin 25 illiyi və Cənub Qaz Dəhlizinə ilk qazın verilməsi münasibətilə təbrik edir. “Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında 30 illik əməkdaşlığın bu mühüm nailiyyətini Sizinlə birlikdə qeyd edirəm”, - deyə ABŞ Prezidenti vurğulayır. Donald Tramp məktubu bu sözlərlə bitirir: “Enerji layihələrinizin uğurunu möhkəmləndirəcək iqtisadi və hüquqi islahatları davam etdirməyinizi dəstəkləyirəm. Bizim böyük dövlətlərimizin və Qafqaz regionunun daha firavan, dinc və təhlükəsiz olması naminə Sizinlə birgə işləmək əzmindəyəm”.

# SOCAR Yaponiyanın “JOGMEC” korporasiyası ilə Əməkdaşlıq Memorandumu imzalayıb

Mayın 30-da Bakıda keçirilən XXV Beynəlxalq Xəzər Neft və Qaz sərgi-konfransı çərçivəsində SOCAR və Yaponiya İqtisadiyyat, Ticarət və Sənaye Nazirliyinin Neft, Qaz və Metallurgiya Korporasiyası (“JOGMEC”) arasında Əməkdaşlıq Memorandumu imzalanıb.

Geoloji və geofiziki tədqiqatlar, texniki əməkdaşlıq və insan resurslarının inkişafı sahəsində əməkdaşlığa dair memorandumu SOCAR-ın prezidenti Rövnəq Abdullayev və “JOGMEC” prezidenti Tetsuhiro Hosono imzalayıb.

Azərbaycanın neft-qaz layihələri Yaponiya şirkətlərinin daim diqqət mərkəzindədir. 20 ildən artıqdır ki, Azərbaycanın yeni neft strategiyası çərçivəsində SOCAR və Yaponiyanın “ITOCHU”, eləcə də “INPEX” şirkətləri arasında qarşılıqlı maraqlara əsaslanan səmərəli əməkdaşlıq həyata keçirilir. Yaponiya Milli Neft Korporasiyasının (“JNOC”) davamçısı olan Yaponiya Neft, Qaz və Metallurgiya Korporasiyasının rəhbər nümayəndələri bir neçə dəfə Azərbaycana səfər edib, SOCAR və “ITOCHU” şirkətləri tərəfindən Pirallahı yatağında layların neftveriminin artırılması üzrə aparılan birgə tədqiqat işinin gedişi ilə tanış olub və gələcək əməkdaşlığa dair təkliflər də buradan yaranıb.

Yaponiya Neft, Qaz və Metallurgiya Korporasiyası 2004-cü ilin fevralında Yaponiya Milli Neft Korporasiyası və Yaponiya Metallurgiya-Mədən Agentliyinin (“MMAJ”) birləşməsi nəticəsində yaranaraq, həmin qurumların müvafiq vəzifələrini öz üzərinə götürüb. Yaponiyanın İqtisadiyyat, Ticarət və Sənaye Nazirliyinin tərkibində olan “JOGMEC” Yaponiya Milli Neft Korporasiyasının davamçısı kimi, hökumət adından “ITOCHU”, “INPEX” və sair şirkətlərin xaricdə neft-qaz sahəsində fəaliyyətlərinə texniki və maliyyə dəstəyi verir.



# Naxçıvanda iftar süfrəsi açılıb



Mayın 29-da Naxçıvan şəhərində ümummilli liderimiz Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə iftar süfrəsi açılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iftar mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov milli mənəvi dəyərlərimizə, tarixi ənənələrimizə və dini mərasimlərimizə xüsusi ehtiramla yanaşan ümummilli liderimiz Heydər Əliyevin “Xalqımızın dini-mənəvi dəyərləri, dinimizin adət-ənənələri bizim milli sərvətimizdir” fikrini xatırladaraq deyib: Ən ali dini dəyərlərimizdən biri də mübarək Ramazan ayıdır. İlahi hikmətlər xəzinəsi olan “Qurani-Kərim”in nazil olduğu bu müqəddəs ay insanları əmin-amanlığa, bərabərliyə və savab işlərə dəvət edir. Dini dəyərlərə göstərilən ehtiramın nəticəsidir ki, muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir. Ali Məclisin Sədri müqəddəs dəyərlərimizin daim uca tutulması diləyi ilə müqəddəs Ramazan ayında duaların və niyyətlərin qəbul olunmasını arzulayıb.

Mərasimdə “Qurani-Kərim”dən ayələr oxunub, dualar edilib. Naxçıvan Muxtar Respublikası Ağciyər və Psixi xəstəliklər dispanserlərində, Naxçıvan Muxtar Respublikası Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərində, eləcə də Hərbi hospitalda müalicə alan xəstələr üçün də iftar süfrələri açılıb.

# Mənəvi Dəyərlərin Təbliği Fondu Bakıda iftar süfrəsi təşkil edib

Bakıda Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən şəhid ailələri və Qarabağ müharibəsi veteranları üçün iftar süfrəsi təşkil olunub. AZƏRTAC xəbər verir ki, Fondun icraçı direktoru Mehman İsmayılov iftar süfrəsinə təşrif gətirənlərə xoş arzularını bildirib, onları müqəddəs Ramazan ayı münasibətilə təbrik edib. M.İsmayılov çıxışında Prezident İlham Əliyevin milli mənəvi dəyərlərimizin qorunmasını və təbliğini daim diqqət mərkəzində saxladığını vurğulayıb. Bildirib ki, ölkəmizdə İslam mədəniyyətinə və digər dinlərə aid tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların bərpası ilə bağlı xüsusi sərəncamların imzalanması deyilənləri bir daha təsdiqləyir. Dövlətimizin başçısının müvafiq Fərmanı ilə yaradılan qurumun əsas fəaliyyət istiqamətlərini də milli mənəvi dəyərlərin qorunması və təbliği, habelə bu istiqamətdə maarifləndirmə işinin aparılması təşkil edir. Fondun icraçı direktoru, eyni zamanda, şəhidlik məqamının dinimizdə yüksək qiymətləndirildiyini qeyd edərək Azərbaycan dövlətinin şəhid ailələrinə və müharibə iştirakçılarına göstərdiyi diqqət və qayğıdan danışıb.





Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin birinci müavini Səyyad Salahlı diqqətə çatdırıb ki, xalqımız əsrlərboyu milli və dini dəyərlərinə sadiq qalıb, özünün adət-ənənələrini yaşadıb. Dini dəyərlərimiz içərisində Ramazan ayının özünəməxsus yeri var. DQİDK sədrinin birinci müavini islami dəyərlərin qorunub saxlanılmasının ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev siyasətinin əsas istiqamətlərindən biri olduğunu qeyd edib. O deyib ki, dövlətimizin başçısının hər il Ramazan ayında İslam və digər dini konfessiyaların nümayəndələri ilə iftar süfrəsində iştirak etməsi onun milli mənəvi və dini dəyərlərə həssas münasibətini bir daha təcəssüm etdirir. Sonda şəhidlərin ruhuna dualar oxunub.

# Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafı: Cümhuriyyətimizin 100-cü ilində daha güclü, daha etibarlı

***Bu günlər Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100-cü ili tamam olur. Bu bir əsrlik tarix hər birimiz üçün qürurverici olmaqla, müstəqil Azərbaycan dövlətinin çox möhtəşəm inkişaf göstəriciləri ilə daha da zənginləşməkdədir. Müasir dünyanın hazırkı odlu-alovlu, müharibə və terror təhdidləri ilə daha da sıxıntılı dövründə sabitlik adası kimi görünən Azərbaycan Respublikası beynəlxalq əhəmiyyəti artan təşəbbüslərin müəllifi kimi uğurlarının əhatəsini daha da genişləndirməkdədir.***



Azərbaycan Respublikası milli iqtisadi quruculuq proseslərini inamla davam etdirməkdədir. Sosial münasibətlərin, ədalətin, rifahın hərəkətverici qüvvəsi olan bu proseslər istehsalın regional və milli mahiyyətini düzgün əlaqələndirməyi bacarmış və bu, makroiqtisadi zəmində çox böyük potensial təmin etmişdir. Nəticədə isə cəmiyyətin artan tələbatlarının qarşılanmasında etibarlı dayaqlar formalaşmışdır. Əldə edilən uğurlar fərdi və ictimai maraqların üstün tutulmasında, vətəndaş və xalq mənafeyinin qorunmasında, region və ölkə iqtisadiyyatının təminat gücünü artırılmasında yeni inkişaf mərhələlərinin açılmasını təmin etmişdir.

Əsasları xalqımızın ümummilli lideri böyük Heydər Əliyevin müdrik ideyaları ilə müəyyən edilən müasir iqtisadi siyasət ölkəmizin, eləcə də onun hər bir regionunun sürətli inkişaf dinamikası üçün güclü baza formalaşdırmış və ötən illərin iftixarından ibarət sosial-iqtisadi intibahın möhtəşəmlik salnaməsini yaratmışdır. Təbii ki, bununla da ölkəmizin milli iqtisadi inkişaf təminatındakı potensialı regionların istehsal çəkisinin artırılmasına imkanlar açmaqda, iqtisadi güc və sosial dayanıqlılıq məqsədlərinin hər zaman aktual olmasına zəmin yaratmaqdadır.

Bütün sahələrdə olduğu kimi, milli iqtisadi quruculuq proseslərində də hər zaman söz sahibi olan Naxçıvan Muxtar Respublikası ölkəmizin müasir inkişaf tarixinin ən parlaq səhifələrini yazmaqdadır. Ali Məclisinin Sədri tərəfindən böyük uzaqgörənliklə həyata keçirilən tədbirlər iqtisadiyyatın məhsuldar idarə olunmasına təkan verməkdədir. Təbiidir ki, bunlar da muxtar respublika iqtisadiyyatında yüksək artım dinamikasını təmin etməklə, cümhuriyyətimizin 100-cü ilinə ən böyük töhfədir. Xüsusən, güclü idarəetmə təcrübəsi əsasında qəbul edilən və uğurlarla icra olunan regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları muxtar respublikanın da mövcud potensialına yeni güc qatmışdır. Nəticədə isə, hədəflənən səmərəlilik həmin Proqramların icrasının elə birinci mərhələsindən özünü göstərməkdədir. Belə ki, müqayisəmizi son on illik müddətin inkişaf göstəriciləri əsasında aparsaq görərik ki, muxtar respublikada əsas makroiqtisadi göstəricilərin artım dinamikası aşağıdakı kimi olmuşdur:




### Naxçıvan Muxtar Respublikasında 2007-2017-ci illərdə əsas makroiqtisadi göstəricilərin artım dinamikası (dəfə)

Daha çox milli iqtisadi quruculuq proseslərindəki fəal iştirakı ilə müasir iqtisadi şəraitin aktual məsələlərini diqqətdə saxlayan muxtar respublikada sakinlərin yaşayış səviyyəsi, onların məşğulluğu və icra olunan sosial proqramlarda təmsil olunması diqqətdə saxlanılmışdır. Elə bunun nəticəsidir ki, əhali məşğulluğunun təmin olunması daima prioritet olmuş, təkcə 2007-ci ildən 1 yanvar 2018-ci ilədək muxtar respublikada 46 min 717 yeni iş yeri açılmışdır. Bu sahədəki proseslərin uzunmüddətliliyi və arasıkəsilməzliyinə önəm verilərək həmin göstəricinin də 84,7 faizinin daimi iş yerlərindən ibarət olunması təmin edilmişdir.

Ötən 2017-ci il tarixə qovuşmaqla, ölkəmizin və onun regionlarının həyatında yüksək sosial-iqtisadi inkişaf göstəriciləri ilə yadda qaldı. Əsas məqsəd ondan ibarət idi ki, makroiqtisadi hədəflərə istiqamətlənən tədbirlər öz səmərəli nəticələrini versin və bu, qarşıdakı dövrlər (illər) üçün də davamlı inkişaf üçün başlanğıc olsun. Bu mənada qeyd edə bilərik ki, ötən ildə də muxtar respublika iqtisadiyyatı üçün pozitiv nəticələr əldə edilmiş və strateji məqsədlər üçün olduqca səmərəli olmuşdur. Diqqət edərkən aydın olur ki, 2017-ci ildə əsas makroiqtisadi göstərici olan Ümum Daxili Məhsulun (ÜDM) həcmi 2016-cı ilin müvafiq göstəricisindən 1,5 faiz çox olmaqla, 2 milyard 701 milyon manatdan artıq təşkil etmişdir. Təbii ki, bu da milli iqtisadiyyat quruculuğu proseslərini daha da sürətləndirmişdir. Bu göstəricinin 2014-cü (2 milyard 391 milyon manat) və 2016-cı (2 milyard 582 milyon 361 min 400 manat) illər üzrə təşəkkülü isə onun yaxın bir neçə ildən sonra 3 milyard manatı ötəcəyini deməyə əsas verir.




### Naxçıvan Muxtar Respublikasında müxtəlif illərdə ÜDM-nin artım dinamikası (min manat)

Makroiqtisadi proseslərin düzgün istiqamətləndirilməsinin, regional siyasətin səmərəli təşkilinin, sosial dayanıqlığın gücləndirilməsinin ifadəsi olan bu nəticələr keçid etdiyimiz 2018-ci ildə də öz pozitivliyi ilə davam etməkdədir. Belə ki, cari ilin yanvar-aprel aylarında muxtar respublikada 711 milyon 398 min 700 manatlıq ÜDM istehsal edilmişdir ki, bu da qətiyyətli idarəetmə və stimullaşdırıcı amillər hesabına mümkün olmuşdur.

Naxçıvan Muxtar Respublikasının yeni inkişaf mərhələsi başlatdığı sahələrdən biri də 2009-cu ildən müsbət saldo ilə yaradıcı təşəbbüslərə yol açan Xarici Ticarət Dövriyyəsinin həcminin artması ilə ifadə oluna bilər. Bu, onu göstərir ki, muxtar respublikada iqtisadi resurslar düzgün idarə edilir, onun perspektivliyi və məhsuldarlığı daim diqqətdədir, həmçinin bu, makro və meqaiqtisadi baxımdan olduqca əhəmiyyətlidir. Həm də blokada vəziyyətinin neqativ təsirlərini sıfıra endirən bu amillər ölkənin uzaq gələcək üzrə müəyyən etdiyi hədəflərə ciddi təkan verməkdədir.

### Naxçıvan Muxtar Respublikasında Xarici Ticarət Dövriyyəsinin strukturu (min ABŞ dolları)




Göründüyü kimi, muxtar respublikada 2009-2017-ci illər ərzində Xarici Ticarət Dövriyyəsinin həcmi 2 dəfədən çox artmışdır. Bu dinamika ixrac əməliyyatlarında 4 dəfəyə yaxın olmuşdur. İstinad edilən dövrdə səmərəlilik göstərcisi olaraq idxalın həcmi isə 3 dəfə azalmışdır. Daxili tələbatın ödənilməsində yerli məhsulların istehsalının dəstəklənməsi öz növbəsində ixracyönümlü məhsul istehsalını stimullaşdırmışdır. Təbii ki, əsas məqsəd idxalın məhdudlaşdırılması ilə müşayiət edilməklə, ixrac səviyyəsinin artması və nəticə etibarı ilə müsbət saldonun yaradılmasından ibarətdir. Bəhs edilən dövrdə müsbət saldo 85 dəfədən çox artmışdır.

2018-ci ilin yanvar-aprel aylarında da muxtar respublika bu sahə üzrə artım dinamikasını davam etdirmiş və 108 milyon 711 min 600 ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi formalaşmışdır. Müəyyən edilən hədəflər üstün tutularaq idxalın məhdudlaşdırılması, bununla da ixracın həm stimullaşdırılması, həm də bu sahədəki təşəbbüslərin dəstəklənməsi diqqətdə saxlanılmışdır. Nəticədə isə 98 milyon 117 min 200 ABŞ dolları həcmində ixrac əməliyyatları aparılmışdır. İdxalın həcmi isə 10 milyon 594 min 400 ABŞ dolları təşkil etmişdir. Təbii ki, bütün bunlar milli iqtisadi prioritetlərə hesablanmaqla, muxtar respublikanın uğurlu xarici ticarət perspektivlərini daha da artırmaqdadır. Elə məhz bəhs edilən dövrdə 87 milyon 522 min 800 ABŞ dolları dəyərində müsbət saldonun yaradılması da fikrimizi təsdiq etməkdədir.

Naxçıvan Muxtar Respublikası bütün bu uğurlarla bir daha onu göstərir ki, Azərbaycan Respublikası:

- doğru hədəf və prioritetlər müəyyən etməkdədir və bu sahədə qətiyyətlidir;
- regionların sosial-iqtisadi inkişafının təmin edilməsində böyük təcrübəyə malikdir;
- gerçəkləşdirdiyi Dövlət Proqramları, Strategiyalar, Konsepsiyalar və digər hüquqi-iqtisadi tənzimləmə vasitələri artıq öz səmərəli nəticələrini verməkdədir;
- 2019-2023-cü illəri əhatə edəcək növbəti beşillik Dövlət Proqramına zəmin yaranır və orada daha yeni, daha mütərəqqi məqsədlər yer alacaqdır;
- cümhuriyyətimizin 100-cü ilində uzaq gələcək üçün güclü potensiala və davamlı perspektivlərə malik hədəflər müəyyən etməkdədir və s.

Beləliklə, bu uğurlar Cümhuriyyətimizin 100-cü ilində daha güclü və daha etibarlı iqtisadiyyat quran Naxçıvan Muxtar Respublikasını ölkəmizin milli iqtisadi inkişafı üçün olduqca güvənilir etmişdir. Təbii ki, ölkəmizdə milli iqtisadiyyatın gələcək inkişafı sahəsində həyata keçirilən tədbirlər muxtar respublikanın həmişəyaşar inkişaf mənzərəsinə çevrilməkdədir. Sosial-iqtisadi inkişafın ən müasir mənzərəsini formalaşdıran bu qəhrəman diyar çox uğurlara imza atacaq.

***Cavadxan QASIMOV,***
***İqtisad üzrə fəlsəfə doktoru, dosent***

# Dövlətimiz milli mədəniyyətimizin hamisidir

*Teyyub Aslanov: "Səhnə fəaliyyətimi yüksək qiymətləndirərək, xalq artisti adına layiq görüldüyümə görə qürur hissi keçirirəm"*



Mədəniyyətin, incəsənətin inkişafına dövlətimizin himayəsi və qayğısı son illər həyata keçirilən mədəniyyət siyasətində daha parlaq şəkildə öz əksini tapır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mədəniyyətimizin inkişafına, klassik və müasir yaradıcı şəxsiyyətlərin yubileylərinin keçirilməsinə, onların yaradıcılıq irsinin bütün dünyada yetərincə təbliğ olunmasına böyük önəm verir. Dövlət başçımızın mədəniyyətimizin aparıcı sahəsi olan ədəbiyyata, bütövlükdə, söz sənətinə, musiqimizə yüksək qayğı və məhəbbəti milli-mənəvi dəyərlərimizə olan diqqətin nümunəsidir. Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə bir neçə sənət xadiminə fəxri adların verilməsi dövlətimizin mədəniyyətimizə göstərdiyi qayğının daha bir bariz nümunəsidir. Həmin sənət xadimləri sırasında uzun illərdir ki, istedadı, ifa tərzi ilə seçilən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, "Qədim Musiqi Alətləri" Dövlət Ansamblının solisti, xanəndə Teyyub Aslanovun da adı var. O, Cənab Prezidentin Sərəncamı ilə Azərbaycan xalq artisti adına layiq görülüb. Xanəndə fəxri ad almasının sevincini bizimlə bölüşərək bildirdi ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ərəfəsində, xalqımız üçün əlamətdar bir tarixdə məni və dəyərli sənətkarlarımızı fəxri adlara layiq gördüyü üçün qürur hissi duyuram: "Azərbaycan Prezidenti Cənab İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya dərin təşəkkürümü bildirirəm. Ölkə rəhbərliyi tərəfindən hər zaman Azərbaycan mədəniyyətinin və incəsənətinin inkişafına xüsusi diqqət yetirilir, sənət adamlarına böyük qayğı göstərilir. Dövlətimizin məqsədyönlü siyasəti nəticəsində ölkəmiz beynəlxalq aləmdə mühüm uğurlar qazanıb, aparılan uğurlu siyasət nəticəsində Azərbaycan mədəniyyəti daha da inkişaf edərək dünya sivilizasiyasında öz layiqli yerini tutub. Muğam sənətimizin UNESCO-nun Maddi Mədəni İrs Siyahısına daxil olması məhz dövlətimizin mədəni irsimizə, bu irsi yaşadan sənətkarlara verdiyi qiymətdir. Dövlətimizin mənə göstərdiyi bu etimad, layiq görüldüyüm bu yüksək fəxri ad üzərimə daha bir məsuliyyət hissi qoyur. Bundan sonra da yaradıcılığımla Azərbaycanın adını daha da yüksəklərə qaldırmaq və ölkəmizin uğurlarını daha da artırmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Qeyd edək ki, T.Aslanov UNESCO səhnəsində dəfələrlə Azərbaycan muğam sənətinin görkəmli nümayəndələri ilə bərabər çıxışlar edib. Muğam sənətinin sirlərini əməkdar müəllim, unudulmaz muğam bilicisi Nəriman Əliyevdən öyrənmiş, 1989-1994-cü illərdə indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində musiqili teatr aktyorluğu ixtisası üzrə təhsil almışdı. 1995-ci ildən muğam üçlüyü və başqa ansambllarla bərabər ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Türkiyə, Avstriya, Niderland, Yunanıstan, Polşa, Rumıniya və s. ölkələrdə konsert və festivallarda iştirak edib. Heydər Əliyev Fondunun həyata keçirdiyi onlarla mədəni layihələrdə böyük qürur hissi ilə iştirak edib.

T.Aslanov söhbət zamanı 2001-ci ildən Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin nəzdində fəaliyyət göstərən qədim musiqi alətləri ansamblının solisti və 2015-ci ildə tələbələr üçün tədris vəsaiti olan "Bayatı-Şiraz" muğamının ifaçılıq təfsiri" (2015) adlı metodik tövsiyənin müəllifi olduğunu bildirdi: "20 ilə yaxındır ki, sənətin sirlərini gənc nəslə öyrədirəm. Bir daha ölkə rəhbərliyinə sənətimə verilən bu dəyərə görə dərin təşəkkürümü bildirirəm".

***Zümrüd BAYRAMOVA***

## Əfqan İsayev: "Azərbaycan indiyədək "Cənub Qaz Dəhlizi" layihələrinə 9 milyard dollar xərcləyib"



"Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsinin işlənməsi üzrə görülücək işlərin (ilk qazın hasilatına dair) 99,5 faizi, Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG) üzrə işlərin 100 faizi, Trans-Anadolu (TANAP) boru kəmərinin inşası üzrə işlərin 93 faizi, Trans-Adriatik (TAP) kəmərinin inşası üzrə işlərin 73 faizi icra edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Bakıda keçirilən XXV "Caspian Oil and Gas" konfransında "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin (CQD) baş direktoru Əfqan İsayev deyib. O qeyd edib ki, indiyədək Cənub Qaz Dəhlizinin tərkibi olan layihələrdə CQD-nin mülkiyyətində olan iştirak paylarının maliyyələşdirilməsinə 9 milyard dollar məbləğində investisiya qoyulub.

## Bu gün Milli Məclisin yaz sessiyasının son iclası keçiriləcək



Bu gün Milli Məclisin 2018-ci ildə yaz sessiyasının son iclası keçiriləcək. SİA-nın xəbərinə iclasın gündəliyinə 20 məsələ daxil edilib. Bunlar "Normativ hüquqi aktlar haqqında" Konstitusiya qanununa dəyişikliklər edilməsi barədə Konstitusiya qanununun layihəsi, "Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun layihəsi 3-cü oxunuşda, "Torpaq icarəsi haqqında" qanuna dəyişiklik, Torpaq Məcəlləsinə dəyişiklik, "Dövlət torpaq kadastrı və torpaqların monitorinqi və yer quruluşu haqqında" qanuna dəyişiklik, "Notariat haqqında" qanuna dəyişiklik, "Banklar haqqında" qanuna dəyişiklik, "Poçt haqqında" qanuna dəyişiklik, "Qiymətli metallar və qiymətli daşlar haqqında" qanuna dəyişiklik, "Sığorta fəaliyyəti haqqında" qanuna dəyişiklik, "Bədən tərbiyəsi və idman haqqında" qanuna dəyişiklik, "İnvestisiya fondları haqqında" qanuna dəyişiklik, "Qiymətli kağızlar haqqında" qanuna dəyişiklik, "Dövlət rüsumu haqqında" qanuna dəyişiklik, "Lisenziyalar və icazələr haqqında" qanuna dəyişiklik, Torpaq Məcəlləsinə dəyişiklik, İnzibati Xətalar Məcəlləsinə dəyişiklik, "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" qanun layihəsi və Azərbaycan Respublikasının 1994-cü il 8 fevral 782 nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Konsul Nizamnaməsində dəyişikliklər edilməsi haqqında qanun layihəsidir.



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

## *Azərbaycan Avropanı necə "ayağına gətirir"?*

***Kimsəyə sirr deyil ki, "Cənub Qaz Dəhlizi" Azərbaycan mavi qazının Avropa bazarına birbaşa çıxarılmasını təmin etmək gücünü öz üzərinə götürən nəhəng layihədir. Rəsmi statistik məlumatlara görə, uzunluğu 870 km olacaq Trans Adriatik Qaz Kəməri "Şahdəniz" yatağının ikinci fazasının mavi qazını Türkiyə, Yunanıstan və Albaniya ərazisi ilə İtaliyaya çatdıracaq. TAP layihəsinin əsas mənbəyi "Şahdəniz"in ikinci fazası çərçivəsində hasil olunacaq qazdır. İkinci mərhələdə Avropaya nəql olunacaq mavi yanacağın həcmi 20 milyard kubmetrə çatdırılacaq. Azərbaycan artıq öz qazını birbaşa Rusiyadan kənar Avropa bazarına çıxara biləcək.***

Lakin əhəmiyyətli məqamlardan biri də budur ki, qardaş Türkiyə və qonşu Gürcüstan da "dəhlizin" reallaşmasından qazanan əsas tərəflər olacaq, o cümlədən, Türkiyə TANAP-a sahib olmaqla, TAP-a da "ev sahibliyi" edəcək ki, bunun nəticəsində qardaş ölkə bu layihədən öz daxili ehtiyacları üçün faydalanacaq. Məsələn, Türkiyəyə nəql edilən qazın illik həcmi 12,6 milyard kubmetrə yüksələcək. Qonşu Gürcüstan isə tranzit ölkə olaraq, TAP çərçivəsində qoyulacaq 40 milyard dollar sərmayənin yarıdan çoxunu, məhz Azərbaycan və Gürcüstan iqtisadiyyatına yönəldib. Daha doğrusu, ilkin qiymətləndirmələrə əsasən, ölkəmizin "Şahdəniz" yatağının birinci və ikinci fazasının işlənilməsindən əldə etdiyi gəlirin həcmi 100 milyard dollardan çox olacaq ki, bu amil "Şahdəniz" yatağının ehtiyatlarının 1,2 trilyon kubmetr qaz həcmində qiymətləndirilir.

Bu zaman digər sual yaranır - "dəhliz" Avropanın enerji təhlükəsizliyinə hansı təsirləri göstərəcək? Belə ki, Rusiyadan mavi yanacaq asılılığı hazırda Qərbin ən problemidir. Lakin bundan sonra ilkin mərhələdə ildə 10 milyard kubmetr qaz Rusiyadan yan keçməklə Avropa bazarına çıxarılacaq. Növbəti mərhələdə bu 20 milyard kubmetrə çatdırılacaq və nəticədə Qərbin Rusiya qanından asılılığı azalacaq. Misal üçün, əgər TAP-ın ötürmə qabiliyyətinin 30 milyard kubmetr olduğunu nəzərə alarsaq, bu, o deməkdir ki, "Abşeron" yatağı da istifadəyə veriləndən sonra Avropa İttifaqı göstərilən həcmdə qazı Azərbaycandan idxal edəcək. Elə birinci mərhələdə Avropa bazarına çatdırılacaq mavi yanacaq bir neçə ölkənin tələbatını ödəmək baxımından böyük əhəmiyyət daşıyacaq. Mavi yanacaq baxımından Rusiyadan 97 faiz asılı olan Bolqarıstan daxili şəbəkə ilə Azərbaycan mavi qazını idxal edəcək. Ümumiyyətlə, Qərbin Azərbaycana qarşı siyasi mövqeyindəki ikili standartlarını nəzərə alarsaq, "Cənub Qaz Dəhlizi" qoca qitəni Azərbaycanın ayağına gətirəcək. Qlobal enerji təhlükəsizliyi müasir dünya iqtisadiyyatında həllini gözləyən vacib problem olaraq qiymətləndirilir və bu kimi reallıq get-gedə özünü daha da sübuta yetirmiş olacaq. O da təsadüfi deyil ki, ekspertlər növbəti 20 il ərzində Avropanın təbii qaz tələbatının 2 dəfə artacağını proqnozlaşdırırlar. Artan tələbatın qarşılığında isə daxili istehsal illik 200 milyard kubmetrdən 100 milyard kubmetrə qədər azalacaq. Beləliklə, Azərbaycanın mavi qızılı Avropanın bəlli tələbatlarını ödəməklə, ölkəmizin dünyanın iqtisadi fonundakı gücünü daha da artıracaq. Artıq bu, bir fakt olaraq, özünü isbatlayan gerçəklikdir.

# Xaliq Bahadır: “Milli Şura qısır qurum olmaqdan qurtula bilmir”

**2013-cü ilin prezident seçkiləri öncəsi xarici qüvvələrin layihəsi əsasında yaradılan və kinorejissor Rüstəm İbrahimbəyovun rəhbərliyi altında Azərbaycan cəmiyyətinə sırınan Milli Şura özünü doğrulda bilmədi. Xalqımız nəinki bu təşkilata, eləcə də ikili vətəndaşlığı olan, ermənipərəstliyi ilə tanınan və sözügedən qurumun sədri təyin olunan R.İbrahimbəyova etimad göstərmədi. Beləliklə də, özlərini “demokratik qüvvələr” adlandıranların Milli Şurası ölü doğulmuş uşağı xatırlatdı.**



Lakin radikal müxalifət, xüsusən də AXCP sədri Əli Kərimli və ətrafındakılar bu “ölünü” diriltmək üçün dönük professor, sabiq deputat Cəmil Həsənlini əvvəlcə quruma sədr, ardınca isə özlərinin prezidentliyə vahid namizədi elan etdilər. Amma bu çaba da bir fayda vermədi. Milli Şura Azərbaycan cəmiyyətində, ölkənin ictimai-siyasi həyatında oturuşa bilmədi, Ə.Kərimlinin iradəsi-



Matlab Mutallimli
27 мая в 10:48

Hörmetli Cemil müellim!
Biz bele hesab edirik ki, eger , Milli Şuranın fealiyyetinde bir sıra ciddi sehvler, nöqsanlar olmasaydı biz daha böyük nailiyyetler elde ede, uğur qazana bilerdik. Bu nöqsanlar hansılardır?
Birincisi, Milli Şura hal-hazırda qapalı bir quruma çevrilmişdir ve ünvanına deyilen haqlı tenqidlere hemişe dözümsüz yanaşır. Sizin rehberlik etdiyiniz qurum hele ki, çoxsaylı eqide düşmenlerini dosta çevirmeyi bacarmamışdır, ancaq, keçen müddetde çoxsaylı dostları düşmene çevirmişdir ve çevirmekde de davam edir. İkincisi, Milli Şura hele de köhne metodlarla işlemekde davam edir, yeni ideyalar , demokratiyanın müdafiesi üçün daha tesirli vasiteler axtarmır ve buna göre de, insanları etiraz aksiyalarına, mitinqlere tam celb ede bilmir, ehalini müteşekkil formada seferber etmeyi bacarmır.Fikrimizce,bu müqeddes işde diger teşkilatlarla,o cümleden, Müsavat Partiyası, Klassik Xalq Cebhesi Partiyası, Real Partiyası ve diger partiyalarla,sayılan seçilen ziyalılarla birge işlemek üçün bütün imkanlardan tam istifade edilmir.
Üçüncüsü, Sizin rehberlik etdiyiniz qurumda bezi şexsler o qeder özüne vurğundur ki, eks fikirleri yaxına buraxmaq istemir, bele fikirleri süngü ile qarşılayırlar. Fikrimizce , bele bir nöqsan hörmetli Əli bey Kerimlide özünü daha çox biruze verir. Əli beyin demokratiya yolunda bütün xidmetlerini, xalq üçün apardığı mübarizeni yüksek deyerlendirmekle beraber,demeliyik ki, ölkeni demokratikleşdirmek isteyen, bu hakimiyyetin sehneden getmesi üçün çalışan, lakin, başqa cür düşünen insanları lider kimi bir ideya etrafında birleşdirmek, onlarla sıx emekdaşlıq etmek evezine, o, yerli-yersiz etimadsızlıq nümayiş etdirir. Onun hereketlerinden, davranışlarından bele tesevvür yaranır ki, Milli Şura üzvlerinden başqa, kenarda olan insanlar hamısı satqındır, agentdir, yaramazdır ve s. Dördüncüsü, Milli Şuranın bezi üzvleri çekinmeden bildirirler ki, eger, bizim fealiyyetimiz kimlerise qane etmirse, o şexsler ayrıca fealiyyet göstere bilerler. Sözsüz ki, bu cür yanaşma da, özünü "Demokatik Qüvvelerin Milli Şurası" adlanan quruma gelecekde yaxşı heç ne ved etmir. Ən azından ona göre ki, bütün sağlam qüvvelerin birliyi olmadan ölkede heç neye nail olmaq mümkün deyildir.
Hesab edirik ki, ünvanınıza dediyimiz bu semimi , qerezsiz fikirleri anlayışla qarşılayacaq, müdriklik nümayiş etdirerek bütün sağlam qüvveleri birleşdirmekle xalqı ireli aparmağı bacaracaqsınız .

nə tabe olan oyuncaq bir quruma çevrildi. Ona görə də zaman-zaman burada narazılıqlar baş qaldırdı, parçalanmalar, qopmalar, istefalar oldu.

Hal-hazırda sözügedən qurumda narazılıq pik həddədir. Buna bir səbəb də özlərini “demokrat” adlandıranların Milli Şuranı diktatorsayağı idarə etməsidir. Belə ki, Milli Şura sədri C.Həsənli Ə.Kərimlinin icazəsi olmadan heç bir müstəqil qərar qəbul edə, hətta üzvlərin hər hansı təşəbbüsünü dəstəkləyə, fikirlərini dinləyə bilmir. AXCP sədrinin iradəsinə zidd davranışlar, onun fikrinə qarşı əks mövqe qoyanlar isə, ümumiyyətlə qəbul edilmir, “persona non qrata” elan olunurlar. Bunun ardınca həmin adamların “qara günləri” başlayır. Ə.Kərimlinin troll dəstəsi belə adamları sosial şəbəkələrdə müzakirə mövzusuna çevirir, onlara satqın, xəyanətkar damğası vurur, ünvanlarına təhqirlər səsləndirir, ömürlərinin böyük hissəsini müxalifətçiliyə həsr etmiş şəxsləri mənəvi terrora məruz qoyur.

Belə “qayda-qanunlar”la idarə olunan Milli Şurada son günlər yenidən gərginlik yaşanmaqdadır. Bunu həmin qurumun üzvü olan şəxslərin sosial şəbəkədə paylaşdıqları statuslar, təşkilatla bağlı söylədikləri fikirlər bir daha nümayiş etdirir. Misal üçün, Milli Şuranın Əlaqələndirmə Mərkəzinin üzvü, baş prokurorun sabiq birinci müavini, keçmiş millət vəkili, Sosial Ədalət Partiyasının sədri Mətləb Mütəllimli mayın 27-də “Facebook” üzərindən C.Həsənliyə və kütləvi informasiya vasitələrinə müraciət edib. M.Mütəllimli ilə yanaşı, sabiq müdafiə naziri Rəhim Qaziyev, Ramiz Tağıyev və Sərdar Əlibəylinin də imza atdığı müraciətdə qeyd olunub ki, onların görüş üçün 8 may 2018-ci il tarixdə C.Həsənliyə ünvanladıqları müraciət diqqətdən kənarda qalıb. Ona görə də M.Mütəllimli və dostları C.Həsənli ilə görüşdə bölüşmək istədikləri fikirləri sosial media və KİV vasitəsi ilə ictimailəşdirmək məcburiyyətində qalıblar. Müraciətdə qeyd olunub ki, Milli Şura hazırda qapalı bir quruma çevrilib və ünvanına deyilən haqlı tənqidlərə dözümsüz yanaşır. C.Həsənlinin fəaliyyətsizliyini açıq-aşkar diqqətə çatdıran müraciət müəllifləri daha sonra bildiriblər ki, Şura hələ də köhnə metodlarla işləməkdə davam edir, yeni ideyalar, demokratiyanın müdafiəsi üçün daha təsirli vasitələr axtarmır, digər təşkilatlarla, o cümlədən Müsavat Partiyası, KXCP və Real-la, həmçinin sayılıb-seçilən ziyalılarla birgə işləmək üçün imkanlardan istifadə edilmir. Müraciət müəlliflərinin qənaətincə, Milli Şurada bəzi şəxslər o qədər özünə vurğundurlar ki, əks fikirləri yaxına buraxmaq istəmir, belə fikirləri süngü ilə qarşılayırlar. Onlar buna misal kimi Ə.Kərimlinin adını çəkiblər və bildiriblər ki, AXCP sədrində özünəvurğunluq daha çox müşahidə olunur. M.Mütəllimlinin yazdığına görə, AXCP sədrinin hərəkətlərindən, davranışlarından belə təsəvvür yaranır ki, Milli Şura üzvlərindən başqa kənarda olan insanların hamısı satqındır, agentdir, yaramazdır, xəyanətkardır.

Təbii ki, bu müraciət Milli Şura daxilində yaşanan fikir ayrılıqlarını, qarşıdurmanı növbəti dəfə gün işığına çıxarır. Müraciətin altındakı şərhlərdə isə narazılıq özünü daha qabarıq şəkildə büruzə verib. Misal üçün, AXCP Rəyasət Heyətinin üzvü Xaliq Bahadır rəy yazaraq, M.Mütəllimlinin yanaşmasında gerçəklik payı olduğunu vurğulayıb. Bildirib ki, gerçəkləri görməzdən gəlməklə uğur qazanmaq olmaz. O, Milli Şuranın “qısır qurum olmaqdan qurtula bilmədiyini” xüsusi vurğulayıb.

Vüqar Mirzəyev adlı sosial şəbəkə istifadəçisi yazıb ki, yalnız AXCP sədri Ə.Kərimli deyil, Milli Şura sədri C.Həsənli, həmçinin Gültəkin Hacıbəyli, Eldəniz Quliyev, İlham Hüseyn və başqa “demokratlar” da fərqli fikrə qarşı dözümsüzdürlər. V.Mirzəyev qeyd edib ki, adlarını çəkdiyi şəxslərin statuslarına mədəni formada tənqidi fikirlərini yazdığına görə, onun “Facebook” profilini “blok” ediblər. Eyni zamanda M.Mütəllimliyə müraciət edib ki, fərqli mövqe ortaya qoyduğuna görə Ə.Kərimlinin troll ordusu ona da hücum çəkib hakimiyyətə satılmış damğası vuracaq. Adam Pənahov adlı istifadəçi isə bildirib ki, AXCP sədri Ə.Kərimlinin səhifəsində hər gün yazılan postlarda mindən çox şərh görünsə də, açıb yazılanlara baxanda yalnız 200-300 şərhi görmək mümkün olur. Onun



Vuqar Mirzeyev Yalnız Ə.Kərimli deyil, C.Həsənli, G.Hacıbəyli və başqaları da fərqli fikrə olduqca dözümsüz yanaşırlar. Mədəni formada tənqid yazdığıma görə məni çoxdan blok ediblər.
Нравится · Ответить · 1 дн.

Vuqar Mirzeyev Eldəniz Quliyev, İlham Hüseyn və 10-larla digər "demokrat" həmçinin.
Нравится · Ответить · 1 дн.

Adam Panahov Əli Kərimlinin səphifəsində hər gün yazılan postlarda 1000dən ox şərh görəsnir ancaq aıb şərhləri baxanda yalnız 200-300 şərhi görmək olur. Bu da o deməkdir ki, Əli Kərimli öz fb səhifəsində oturub şərhləri güdür.
Нравится · Ответить · 1 дн.

Vuqar Mirzeyev Adam Panahov Güdür və sərf eləməyənləri silir.

fikrincə, bu, o deməkdir ki, Ə.Kərimli bütün günü öz “Facebook” səhifəsində yazılanları oxuyur və fərqli fikirləri, tənqidi rəyləri silir.

A.Pənahov C.Həsənlinin Milli Şuranın formal sədri olmasına diqqət çəkərək, bu müraciətin Ə.Kərimliyə ünvanlanmasını daha düzgün hesab edib. Onun fikrincə, Milli Şuranın əsl rəhbəri, sədri Ə.Kərimlidir. A.Pənahov Ə.Kərimlinin keçmiş müavini Razi Nurullayevin AXCP sədrinin troll ordusu olması, cəbhəçilərin hərəsinin 100-dən çox saxta profil işlətməsi barədə etirafını da xatırladıb. Əliyar Məmmədov da M.Mütəllimlinin müraciətini dəstəkləyib. O, bu müraciəti oxuyarkən “NİDA”çı Zaur Qurbanlının “Müxalifət nazirliyi” yazısını, həmin “nazirliyin” əsas “nazirinin” elə Ə.Kərimli olduğuna eyham vurmasını xatırladıb. Bildirib ki, Azərbaycanda siyasətdən uzaq olan vətəndaşlar arasında Milli Şuranı tanıyan min nəfər də yoxdur. Onun qənaətincə, C.Həsənli son vaxtlar yalnız Ə.Kərimlinin yazdıqlarına reaksiya verir. Sanki Milli Şuranın sədri o deyil, Ə.Kərimlidir.

Əli Kərimliyə dəstək verən Murad Sultanov adlı şəxs KXCP və Müsavat rəhbərliyindəki ciddi insanların Milli Şurada təmsil olunduğunu əsas gətirərək, M.Mütəllimlidən fikirlərini əsaslandırmağı tələb edib. Qeyd edib ki, əks halda, bunlar sadəcə qeyri-ciddi və təxribat xarakterli addım sayılacaq. Vüqar Mirzəyev isə ona suallarla cavab verib: “Oktay Gülalıyevlə Tofiq Yaqubludan başqa ciddi adam yoxdur KXCP və Müsavatda? Bəs Mirmahmud ağa, Bəybala Əbil, Arif Hacılı, Yadigar Sadıqov, Elman Fəttah və başqaları ciddi adamlar deyil?”

Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Eldəniz Quliyev rəy yazaraq, hazırkı həssas dönəmdə belə müraciətin yersiz olduğunu bəyan edib. Lakin facebook istifadəçilərindən biri E.Quliyevi R.İbrahimbəyovun erməni maraqlarına xidmət edən “Qafqaz triosu” filminə münasibət bildirməməkdə ittiham edib. Zaur Cəbrayılov E.Quliyevə suallarla cavab verib: “Bəs nə vaxt olacaq vaxtı? Eldəniz bəy, bu arada, siz niyə Rüstəm İbrahimbəyovun filminə münasibət bildirməmisiniz? Nədən çəkinirsiniz?”.

Fərid Əsədov adlı şəxs AXCP sədrini müdafiə etmək məqsədilə yazıb ki, ölkədə elə adam yoxdur ki, lazım olduğu halda Ə.Kərimli ilə istənilən məsələni üzbəüz görüşüb müzakirə edə bilməsin. Onun qənaətincə, bu məsələ barədə sosial şəbəkə üzərindən deyil, daha dar dairədə danışılmalı, anlaşma əldə edilməlidir. M.Mütəllimli də cavab verib ki, buna cəhd edilsə də, qarşı tərəf görüşmək istəməyib. Bu yazışmalardan göründüyü kimi, AXCP sədri Ə.Kərimli Milli Şuranı və onun sədri C.Həsənlini tam nəzarət altında saxlayır, həm öz partiyasını, həm də digər qurumu diktatorsayağı idarə edir. Onun qorxusundan C.Həsənli alternativ fikrə dözümsüz münasibət sərgiləyir, hətta rəhbərlik etdiyi təşkilatın üzvləri ilə görüşməyə belə cəsarət etmir. Bu kimi səbəblərdən Milli Şura daxilində çaxnaşma və narazılıq var. AXCP Rəyasət Heyətinin üzvü X.Bahadırın Milli Şuranı qısır quruma bənzədərək aşağılaması isə onu deməyə əsas verir ki, sözügedən qurum hətta cəbhəçilərin də gözündən düşüb. Əslində, qurucusu ermənipərəst R.İbrahimbəyov olan bir qurumun aqibətinin bu cür olması gözlənilən idi. Hazırda bu qurum Ə.Kərimlinin iradəsinə tabe olan oyuncaq bir dərnəkdir. Professor adı daşıyan C.Həsənli də oyuncaq qurumun oyuncaq sədri funksiyasını yerinə yetirir.

***Rufik İSMAYILOV***

# Dövlət sərhədini pozmuş İran və Banqladeş vətəndaşları saxlanılıb

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən sərhəd təhlükəsizliyinin təmin edilməsi sahəsində əməliyyat-axtarış və sərhəd-mühafizə tədbirləri uğurla davam etdirilir.








Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən qəzetimizə verilən məlumata istinadən, DSX hərbi qulluqçuları tərəfindən DİN əməkdaşları ilə birgə keçirilmiş sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində, İmişli rayonu ərazisində Cəbrayıl rayonunun məcburi köçkünlərinin məskunlaşdığı 6 nömrəli qəsəbədə İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozmuş İİR vətəndaşı 1987-ci il təvəllüdlü Əhmədli Vəhid Heydər oğlu saxlanılmışdır.

Sərhəd pozucusunun dindirilməsi nəticəsində, onun Azərbaycan Respublikası ərazisinə rəsmi yolla gəlmiş 5 nəfər Banqladeş vətəndaşına bələdçilik edərək, İİR ərazisinə qanunsuz keçirmək niyyəti ilə dövlət sərhədini pozması müəyyən edilmişdir. Təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində, Banqladeş vətəndaşları - 1993-cü il təvəllüdlü Mahammad Calal Uddin, 1994-cü il təvəllüdlü Axmed Malik Minbarali, 1995-ci il təvəllüdlü Minhaj Uddin Cabed, 1998-ci il təvəllüdlü Abdul Kazim Tolukber, 1999-cu il təvəllüdlü Mahammad Ebad Mozumber şübhəli şəxs qismində saxlanılmışlar.

Saxlanılmış əcnəbilər barəsində müvafiq əməliyyat-istintaq tədbirləri həyata keçirilir.

***ZÜMRÜD***

# XƏYANƏT





Rüstəm İbrahimbəyov və onun oğlu Fuad İbrahimbəyov "Qafqaz üçlüyü" filmini çəkməklə, əslində, öz xalqına qarşı xəyanət yolu tutaraq, özlərinin daxili aləmində Azərbaycan xalqına olan qəzəb və nifrətlərini, ermənilərə qarşı isə sevgi və məhəbbətlərini nümayiş etdirmişlər. Təxminən avtobioqrafik xarakter daşıyan filmdə İbrahimbəyovlar film yaratmaqdan öncə, daha çox qisasçılıq haqqında düşünmüşlər. Fikrimcə, filmdəki Timur obrazı elə Rüstəm İbrahimbəyovun - Arustam İbragimbekyanın obrazıdır, onun prototipidir və əminəm ki, elə Arustamın da əsl atası Məmmədibrahim yox, Hambarsumdur. Əks-təqdirdə, damarlarından azərbaycanlı qanı axan istənilən bir şəxs belə bir film və ya ssenari yaza bilməzdi. Əgər filmin yaradıcıları iştirakçıları olan Fuad və Fatimə azərbaycanlı olsa idi, heç olmasa, onlar belə film çəkməyə imkan verməzdilər. Ona görə də, hesab edirəm ki, azərbaycanlı cildinə girərək, Azərbaycan dövləti hesabına özünə sərvət toplayan, fəxri adlarla, orden və medallarla təltif edilən, erməni mənşəli Arustam İbragimbekyan bütün titullardan məhrum edilməklə yanaşı, həm də Azərbaycan vətəndaşlığından məhrum edilməlidir. Qoy gedib nə işlə istəyir məşğul olsun. Onun indiyə qədər Azərbaycan xalqına və dövlətinə elədiyi xəyanətləri də kölgə altına düşür. Bu naqis məxluq 10 ildən çoxdur ki, Azərbaycana xalqına qarşı həqarətlər yağdırmaqda davam edir. Biz isə susuruq. Təəssüf edirəm ki, bir zamanlar görkəmli Azərbaycan ziyalısı, akademik Nizami Cəfərov Rüstəm İbrahimbəyovun sayıqlamalarına qarşı öz haqq səsini qaldıranda, bir çox görkəmli Azərbaycan ziyalıları, nəinki R.İbrahimbəyovu müdafiəyə qalxdılar, hətta Nizami Cəfərova qarşı tənqid və bəzi hallarda təhqir yağdırmaqdan belə çəkinmədilər. Bu da nəticəsi! İndi, görəsən, həmin ziyalılar filmə baxdıqdan sonra öz hərəkətlərindən xəcalət çəkdilərmi? Və ya onlar Rüstəm İbrahimbəyov barədə yenədəmi öz fikirlərində qalırlar? Əgər belə deyilsə, niyə onda digər ziyalılar kimi onlar da öz münasibətlərini bildirmirlər. Niyə ağızlarına su alıb, dayanıblar?

Bir məsələyə də münasibətimi bildirmək istəyirəm. Arustam İbragimbekyanın bu filmi bizi bir daha ayıltdı. Sübut etdi ki, "Milli Şura" adlanan, əslində, anti-"Milli Şura" ermənilərlə iş birliyi qurub. Bunu iş birliyi yox, birgə fəaliyyət adlandırsaq, daha düzgün olardı. Əgər belə deyilsə, bir vaxtlar onu "Milli Şura"ya sədr seçən, prezidentliyə namizədliyini irəli sürən Cəmil Həsənli də, Gültəkin Hacıbəyli də, onlara züy tutan Əli Kərimli də Arustam İbragimbekyanın bu xəyanətinə münasibətlərini bildirsinlər. Bütün bunlara rəğmən, bir Azərbaycan vətəndaşı kimi anti-milli "qüvvələr"ə səslənirəm: Azərbaycan xalqı öz Prezidenti ətrafında sıx birləşib, xalq-iqtidar birliyi ölkəmizi daha uğurlu inkişafa doğru aparır. Arustamın milçək vızıltısı və ona dəstək verənlər heç nəyi dəyişə bilməzlər. Nə qədər ikili standartlar olsa da, dünya ictimaiyyəti həqiqəti dana bilməz. Əminəm ki, bu xəyanətinə görə Azərbaycan xalqı, ömrünün qürub çağını yaşayan, bir ayağı gorda olan Arustamı zaman-zaman lənətlə yad edəcəkdir.

***Ramiz Göyüşov,***
***Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri***

# "Bakcell"dən UFAZ-da keçirilmiş beynəlxalq innovasiya müsabiqəsinə dəstək

***Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti "ActInSpace 2018 Azerbaijan" beynəlxalq innovasiya müsabiqəsinə dəstək göstərdi. 2014-cü ildən etibarən bütün dünyada təşkil olunan ActInSpace müsabiqəsi Azərbaycanda ilk dəfə olaraq Azərbaycan-Fransız Universiteti (UFAZ) tərəfindən keçirilib.***

Kosmos proqramları sahəsində beynəlxalq nüfuza malik ActInSpace müsabiqəsi Milli Kosmik Tədqiqatlar Mərkəzi (CNES), Avropa Kosmik Agentliyi (ESA) və ESA BİC Sud France kimi təşkilatların iştirakı ilə dünyanın 40 ölkəsinin 70 şəhərində keçirilir. Dünyanın istənilən ölkəsindən gələn iştirakçılar üçün açıq olan bu müsabiqənin əsas məqsədi sahibkarlığın inkişaf etdirilməsi və proqram təminatı, verilənlər bazaları və kosmik infrastruktur sahəsində mövcud olan problemlərin həlli yollarının tapılmasıdır.

"ActInSpace 2018 Azerbaijan" UFAZ tərəfindən, Fransanın Azərbaycandakı səfirliyi, Bakcell şirkəti, "IT STEP Academy" və "AIKON Constructions" şirkətinin sponsorluğu və dəstəyi ilə təşkil olunub. Bakının müxtəlif universitetlərindən olan 100-dən artıq tələbədən ibarət komandalar müsabiqədə iştirak etməklə CNES, ESA, Airbus və kosmik sənayesində fəaliyyət göstərən digər təşkilatlar tərəfindən qoyulmuş real həyat tapşırıqları üzərində çalışıblar. Komandalara kosmik texnologiyalar üçün istifadə olunacaq innovativ xidmət və məhsulları fikirləşib öz ideyalarını irəli sürmək üçün 24 saat vaxt verilib.

Mayın 24-də "AIS2018 Azerbaijan" müsabiqəsinin sponsorları və partnyorlarının iştirakı ilə keçirilmiş mətbuat konfransında çıxış edən "Bakcell"in baş icraçı direktoru Nikolai Bekkers bildirib ki, şirkət gənc nəslin nümayəndələrin təşəbbüslərini və Azərbaycanda təhsilin inkişaf etdirməsi ilə bağlı layihələri dəstəkləməyə həmişə hazırdır: "İnnovasiyalar Bakcell şirkətinin fəaliyyətində həlledici rola malikdir. Bildiyiniz kimi, Bakcell ölkədə müxtəlif hakaton və startap layihələrin keçirilməsini dəstəkləyən ilk şirkətlərdən olmaqla yanaşı özünün müasir startap inkubasiya mərkəzini yaradıb. Bizim əsas missiyamız Azərbaycanın gənc vətəndaşlarını maarifləndirmək və onlara inkişaf üçün stimul verməkdir. Bu baxımdan AİS təşəbbüsünə dəstək verməkdən imkandan çox məmnunuq. "Bakcell"i bu layihənin yerli partnyoru qismində seçdiklərinə görə Fransa Səfirliyinə və UFAZ-a öz dərin təşəkkürümüzü bildiririk. Biz əminik ki mütəxəssislərimizin təcrübəsi və dəstəyi yarışma zamanı komandalar üçün olduqca faydalı olacaq".




Tələbələrin hazırladıqları startap layihələr ekspertlər tərəfindən qiymətləndirilib və iki layihə final mərhələsinə keçib. Qalib komanda Strasburq Universitetinin rektoru Mişel Deneken, ADNSU-nun rektoru, professor Mustafa Babanlı, Fransanın Kosmik Tədqiqatlar Milli Mərkəzinin prezidenti Jan-Iv Le Gal və "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyevdən ibarət münsiflər heyəti tərəfindən seçilib. UFAZ-ın 5 nəfər birinci kurs tələbəsində ibarət "Sooners" komandası Azərbaycan üzrə birinci yerin, UFAZ-ın "Tensor Science" komandası isə ikinci yerin qalibi olub. Qalib komanda iyunun 27-si Azərbaycanı beynəlxalq final mərhələsində ilk dəfə olaraq təmsil etmək üçün Fransanın Tuluza şəhərinə göndəriləcək.

Qeyd edək ki, "ActInSpace 2018 Azerbaijan" müsabiqəsinin keçirilməsinə maliyyə dəstəyi göstərən Bakcell həmçinin iştirakçıları texniki məsləhət və təlim dəstəyi ilə təmin edib. Belə ki, Bakcell şirkətinin "AppLab" inkubasiya proqramının ekspertləri və komanda üzvləri iştirakçılara startap layihələrinin hazırlanmasında kömək etmək üçün texnologiya və biznes modeli kimi sahələr üzrə öz təcrübə və bilikləri ilə bölüşüb. İnnovasiya sahəsində lider olan Bakcell gənc nəslin nümayəndələrinə inkişaf imkanları, məsləhətlər və hətta innovativ ideyaların həyata keçirilməsi üçün tələb olunan dəstəyi göstərməyə hazırdır.

# Elmə həsr olunan ömür - professor Sakit Hüseynovun 70 illiyinə təbrik sözü



***Təvazökarlıqdan kənar olmasın, məni tanıyanlar, "yazıpozu" işini müəyyən qədər bacardığımı, hətta bəzən çoxlarından daha yaxşı bacardığımı bildirirlər. Amma Sakit müəllim haqqında bu yazını olduqca tərəddüd etdikdən və günlərlə düşündükdən sonra yazmağa qərar verdim. Dəfələrlə yazını başladım, sonra bəyənməyib sildim və yenidən, nəhayət, qərara gəldim ki, nə isə yazmalıyam. Sakit müəllimlə, qısa bir vaxtda ünsiyyətdə olan bir adamın belə, onun haqqında müəyyən fikirləri formalaşır və yazmamağa isə mənəvi haqqı yoxdur.***

Bütün bu tərəddüdlərin isə bir səbəbi var. Fəlsəfə elmləri doktoru, professor Sakit Hüseynovu, ömrünü, bütünlüklə, Azərbaycan elminin inkişafına həsr edən Sakit müəllimi, daim istedadlı gənclərin yanında olan, onların yoluna nur saçan bir ziyalını və nəhayət, bir Sakit babanı olduğu kimi xarakterizə edə biləcək, onu qismən də olsa, təsvir edəcək söz tapmaqda çətinlik çəkirdim. Elə tərəddüdlərlə də, bu yazını qələmə almağa başladım. Yuxarıda qeyd etdiyim kimi, Sakit müəllimi çox yaxından tanıyan biri kimi, yazıda da müxtəlif aspektlərdən yanaşmağı daha zəruri hesab edirəm.

Mən, ilk dəfə, Sakit Hüseynovu universitetin fəlsəfə müəllimi kimi tanıdığım üçün, elə buradan da başlamaq istərdim. Görkəmli alman pedaqoqu A.Disterveq öz əsərlərində yazır: "Pis müəllim şagirdlərə həqiqəti təqdim edir, yaxşı müəllim onu tapmağı öyrədir". Təsadüfü deyildir ki, xalq arasında da belə bir deyim formalaşıb: "müəllim o kəs deyil ki, öyrədir, o kəsdir ki, ondan öyrənirlər". Bu məsələyə alman filosofu İ.Hötenin münasibəti isə belə idi: "Kimlərdən biz öyrəniriksə, düzgün olaraq, bizim müəllimlərimiz adlandırılırlar, lakin hər öyrədən bu ada layiq deyil. Bu ada layiq olmaq üçün ...təhsildə kamilliyə çatmaq lazımdır". Bu gün, mən tam əminliklə deyə bilərəm ki, yüzlərlə gəncin yaxşı mütəxəssis, vətənpərvər, vətənini, xalqını, millətini sevən əsl vətəndaş, xeyirxah bir insan kimi formalaşmasında əvəzsiz xidmətləri olan Sakit müəllim, məhz "təhsildə kamilliyə çatan", öz sahəsinə dərindən bələd olan elə bir alimdir ki, "...ondan öyrənirlər". Əlbəttə, etiraf edək ki, Sakit Hüseynov kimi müəllimlər tələbələr üçün "göydəndüşmə" olur və yüksək insani keyfiyyətlərə malik güclü gənclik də, məhz belə müəllimlərin sayəsində formalaşır ki, bu da, elə güclü dövlət deməkdir. Təsadüfi deyildir ki, alman kansleri O.Bismark Almaniyanın möhtəşəmliyini alman xalq müəllimi ilə bağlayırdı. Fransa-Prussiya müharibəsində Prussiyanın qələbəsini alman müəlliminin qələbəsi hesab edirdi: "Biz qələbə çaldıq ona görə ki, alman müəllimi fransız müəlliminə üstün gəldi". Bütün bunlarla yanaşı, Sakit müəllim, həm də özünün elmi-tədqiqatları, əsərləri ilə, nəinki Azərbaycanda, eyni zamanda, Türkiyə, İran və MDB məkanında da olduqca tanınmış və qəbul edilən bir filosof-alimdir.

Azərbaycan Respublikasında davamlı inkişaf və məişət ekologiyası problemlərinin ilk tədqiqatçısı, eləcə də, respublikamızda "Davamlı İnsan İnkişafı Konsepsiyası"nın banisi olan S.Hüseynov 5 monoqrafiyanın, 20-dən çox metod-vəsaitin və büroşuranın, eləcə də, müxtəlif yerli və xarici elmi jurnallarda çap olunmuş 150-yə yaxın məqalənin müəllifidir. Aydındır ki, hər bir insanı tanımaq üçün əsas onun əməlləridir. Alim üçün isə həm də onun əsərləridir. Sakit Hüseynovun elmi əsərləri ilə tanış olduqda, onun geniş bilik və dünyagörüşünə, zəngin elmi məlumatlara, iti hafizəyə, müstəqil fikir və cəsarətli mühakimələr yürütməyə qadir olan istedadlı bir alim, yaradıcı bir insan olması qənaətinə gəlirsən.

Qeyd edildiyi kimi, S.Hüseynovu digər insanlardan fərqləndirən əsas xüsusiyyətlərdən biri də onun, daim gənclərə xeyirli məsləhətlər verməsi, onları həyata vətənpərvər, geniş dünyagörüşünə yiyələnmiş, yüksək intellektual səviyyəyə malik, savadlı bir insan kimi istiqamətləndirməsi və sanki bu işdən xüsusi zövq almasındadır. Bu böyük insan bütün gənclərin öz ixtisasını, kompüteri və Azərbaycan tarixini dərindən bilməsinin vacibliyini, xüsusilə, qeyd edir və gənc tədqiqatçılardan, ilk növbədə, bunu tələb edir.

S.Hüseynovun məsləhətlərinə qulaq asdıqda, onunla ünsiyyətdə olduqda adamda ruh yüksəkliyi yaranır, daha da mübarizləşir və adama elə gəlir ki, həyatda insanın həll edə bilməyəcəyi heç bir problem mövcud deyildir, hər şey insanın öz əlində, onun savadlı, müasir, prinsipial, zəhmətkeş və mübariz olmasından asılıdır. Azərbaycan tarixinə çox yaxından bələd olan Sakit müəllimin söhbətlərinə qulaq asdıqda, sanki bir anlığa onun filosof deyil, tarixçi, bioloq, filoloq və s. sahələrin tədqiqatçısı olduğu qənaətinə gəlirsən. Bütün bunlar isə Hüseynovun zəngin dünyagörüşünün və dərin biliyinin nəticəsidir. Hal-hazırda da, həftənin 2-3 gününü Axundov adına Kitabxanada müxtəlif elmi axtarışlara, yeniliklərin öyrənilməsinə sərf edən Sakit Hüseynovun bir çox gənclərin çevik tədqiqatçı, əsl alim və ən əsası vətənpərvər bir insan kimi yetişməsində xüsusi zəhmətləri olmuşdur. İştirak etdiyi bütün tədbirlərdə, yaşından asılı olmayaraq, hər zaman öz davranışı, elit mədəniyyəti və yüksək dünyagörüşü ilə fərqlənən, sayılıb-seçilən bu alimin hörməti, artıq Azərbaycanın sərhədlərini aşıb keçmişdir. Müxtəlif istiqamətlərdə elmi araşdırmalar aparan İran, Pakistan, Türkiyə və s. ölkələrin vətəndaşlarına elmi rəhbərlik edən, məsləhətlər verən, öz vaxtına heç bir xəsislik etmədən onlara tədqiqatçı kimi yetişməyin yollarını öyrədən Sakit Hüseynov bir filosof, ustad (xaricdə onu belə çağırırlar) və bir insan kimi bu ölkələrdə də xüsusi hörmətə malikdir. Hətta fəlsəfə sahəsini seçməyən gənclər belə, Sakit müəllimlə məsləhətləşir, elmi-tədqiqat aparmağın sirlərini ondan öyrənirlər.

Məhz çalışqanlığın, elmin sirlərinə yaxından yiyələnməyin, daimi elmi axtarışda olmağın, zəhmətə qatlaşmağı bacarmağın, müasir fəlsəfəyə dərindən yiyələnməyin və vətəninə-millətinə hədsiz sevginin nəticəsidir ki, fəlsəfə elmləri doktoru Sakit Hüseynovun vətənpərvərlik, yoxsulluğun azaldılması və davamlı inkişaf, ekoloji problemlər, məişət ekologiyası və s. sahələrdə yazdığı 50-yə yaxın elmi əsərlər dünyanın müxtəlif nüfuzlu elmi nəşrlərində dərc edilmiş və bir çoxu müəyyən təltiflərə layiq görülmüşdür. Məsələn, Almaniyada yerləşən "Nizami" adına İnstitutun Fəxri Fərmanı, Dünya Bankı tərəfindən "Yoxsulluğun aradan qaldırılması və davamlı inkişafın təmin edilməsi" istiqamətində aparılan elmi-tədqiqatlara görə verilmiş Fəxri Fərman və Diplom və s. məhz S.Hüseynovun elmi araşdırmalarına verilən qiymətin kiçik bir nümunəsidir.

Yeri gəlmişkən, İran İslam Respublikasında 2008-ci ilin 23-27 aprel tarixlərində "Məşğulluğun təmin edilməsi və yoxsulluğun aradan qaldırılması" mövzusunda keçirilən və ümumilikdə, 250-dən çox elmi məqalənin dinlənildiyi beynəlxalq konfransda da qızıl medala layiq görülən beş məqalədən biri xalqımızın vətənpərvər oğlu, böyük filosof Sakit Hüseynovun məqaləsi idi. Bütün bunlar Sakit müəllimlə qürur duymağa, bu böyük insanla fəxr etməyə tam əsas verir.

Yüksək elmi göstəriciləri və insani xüsusiyyətləri ilə yanaşı, Sakit Hüseynov, həm də qayğıkeş bir babadır. Onu tanıyanlar, tərəddüdsüz təsdiq edərlər ki, bu insan sanki nəvələri ilə nəfəs alır. Onların ən xırda bir nasazlığı Sakit müəllimi ciddi şəkildə pərişan edir. Sakit baba, hamısı birlikdə bir normal dövşan çəkisində də olmayan" nəvələrini "mənim pələnglərim" deyə çağırır. Əslində isə, uşaqlar Sakit babanın yanında özlərini "ən güclü", "toxunulmaz" hesab edərək "pələngə", biz valideynlər isə "dövşana" çevrilirik. Başqa sözlə desək, böyüklə böyük, kiçiklə kiçik olmağı bacaran Sakit baba nəvələrinin də dərin məhəbbətini qazanmışdır.

Bu yerdə televiziyadan izlədiyim bir görüntü yadıma düşdü. Nəvə babasından soruşur ki, "Baba, sən nə vaxt öləcəksən?" Baba cavab verir ki, "Sən öləndən sonra". Bu cavabdan hirslənən nənə babanın üzərinə yeriyir. Baba isə, səbrlə nənəyə izah edir ki, nə qədər ki, bu nəvələr yaşayır bizi öz qəlblərində, xatirələrində yaşadacaqlar, onlardan sonra isə bizim yaşamağımız olduqca az ehtimallıdır. Əlbəttə, bu, normalda başadüşülən və qəbul edilən bir məsələdir. Amma Sakit babanın həyat amalı, bütün insanlara, xüsusilə, doğmalarına qarşı diqqət və qayğısı belə deməyə əsas verir ki, o, nəinki nəvələrinin, hətta nəvələrinin nəvələrinin də qəlbində yaşayaraq, əbədiyaşar bir insana çevriləcəkdir. Bunu isə, məhz indiki yüksəkliyi ilə qazanmışdır. Çox sağ ol, Sakit baba, biz səni çox istəyirik, dünya durduqca var olasan (nəvələrin)!

May ayında əsl alim, gözəl insan, məzmunlu və dərin fəlsəfi- elmi əsərləri, xeyirxah elmi məsləhətləri ilə saysız-hesabsız insanın qəlbində özünə yer tapan, hələ gənc yaşlarından ağsaqqallıq yükünü məsuliyyət və şərəflə daşımağı bacaran, vətənini və millətini hər şeydən uca tutan, nəvələrinin və doğmalarının sevimlisi olan, öz dəyərəli məsləhətləri ilə xüsusi rəğbət qazanan Sakit Hüseynovun 70 illik yubileyidir. Düzdür, Sakit müəllimin elmi-tədqiqata olan həvəsi, bacarığı, cəsarətliliyi, elmi prinsipiallığı, zəhmətkeşliyi və daim yenilikləri öyrənmək istəyi 25-30 yaş səviyyəsinə daha çox uyğundur. Ancaq elmi əsərləri, tədqiqatları ilə tanış olduqda, adama elə gəlir ki, Sakit müəllim yarım əsrdir ki, bu dünyada yazıb-yaradır. Böyük alim-filosof Sakit Hüseynovu 70 illik yubileyi münasibətilə təbrik edir, ona can sağlığı, uzun ömür, elmi işlərində və şəxsi həyatında yeni-yeni uğurlar arzu edirik. Sakit baba, Allah sənə can sağlığı versin, bizimlə doyunca oynamağa vaxtın, həvəsin və yüksək əhval-ruhiyyən olsun (nəvələrin)!!!

*AMEA-nın müxbir üzvü,*
*kimya elmləri doktoru,*
*professor İslam MUSTAFAYEV,*
*AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri, dosent Aqil ƏSƏDOV*

## Ermənistanda tələbələr rektoru girov götürüblər

İrəvan Dövlət Universitetinin rektoru xəstəxanaya yerləşdirilib. SİA-nın xəbərinə görə, bu barədə Universitetin mətbuat katibi Emin Teryan öz şəxsi Facebook səhifəsində yazıb. Belə ki, İrəvan Dövlət Universitetinin tələbələri rektorun istefa verməsini tələb ediblər və bunun üçün onlar rektoru akt zalında bağlı saxlayıblar. Qeyd edək ki, tədbir təşkilatçılarından biri David Petrosyan jurnalistlərə məlumatında bildirib ki, universitetdə təhsilin aşağı səviyyədə olması ilə bağlı problemlər yaranıb. Rektor bu kimi problemləri həll edə bilmədiyi üçün tələbələr rektorun istefa verməsini istəyiblər. Məlumata görə rektor 10 dəqiqədən artıq akt zalında bağlı qalıb, ancaq təzyiqlərə baxmayaraq istefaya getməyəcəyini bəyan edib.

## Lukaşenkonun köməkçisi rüşvətə görə tutulub



Belarusun Dövlət Təhlükəsizlik Komitəsi (DTK) 200 min dollar məbləğində rüşvət aldığı üçün Prezidentin köməkçisi Sergey Rovneykonu saxlayıb. AZƏRTAC BELTA-ya istinadla xəbər verir ki, bu barədə DTK-nın mətbuat xidməti məlumat yayıb. Komitəyə artıq bir ildir onun rüşvət alması barədə məlumat daxil olubmuş. Araşdırma zamanı məlum olub ki, o, öz kurasiyasında olan məsələlərin həlli zaman rüşvət alırmış. Belarus Prezidenti Aleksandr Lukaşenkonun sanksiyasından sonra operativ-əməliyyat tədbirləri keçirilib və o, növbəti dəfə rüşvət alan zaman tutulub. Cinayəti sübut olunarsa Sergey Rovneyko 15 il müddətinə azadlıqdan məhrum ediləcək.

## Bakıda "İnfiniti"dən qızıl əşyalar oğurlayan şəxs tutulub

Bakıda "İnfiniti"dən qızıl əşyalar oğurlayan şəxs tutulub. DİN-dən Trend-ə verilən məlumata görə, Nərimanov RPİ 18-ci PŞ əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri ilə martın 9-da İ.Nəcəfovaya məxsus "İnfiniti" markalı avtomobildən qızıl əşyalar oğurlamaqda şübhəli bilinən Lənkəran şəhər sakini Namiq Təhməzov saxlanılıb.

# Paşinyan siyasi qərarını verə bilmir - ən optimal variantı tapa bilməsə, Ermənistan məhv olacaq

## *İşğalçı ölkəni qarşıda çox ciddi və ağır günlər gözləyir*

***Ermənistanda demokratik dəyişikliklər ölkədə dərin islahatların həyata keçirilməsini tələb edir. Belə ki, ölkədə monopolistlər istehsal və ticarət sahələrini inhisara götürüblər və bu, ilk növbədə, ölkədə inhisarçıları meydandan uzaqlaşdırmaq və azad sahibkarlığa meydan açmaq lazım gələcək. Paşinyan, yəqin ki, bunu və siyasi idarəçiliyin demokratikləşdirilməsi tələbini həyata keçirəcək. Yəni o, seçki qanununu dəyişdirəcək. İdarəetmə ilə bağlı bir sıra sahələrin qanunvericilik bazasını da təkmilləşdirəcək.***



### Ermənistanın xəzinəsi boşdur

Ermənistandan oğurlanmış xeyli miqdarda pulun bir qismi Qərb ölkələrindədir. Artıq belə demək mümkündür ki, yeni baş nazir bu fonda Qərb dövlətləri ilə əlaqəyə girmək məcburiyyəti qarşısında qalacaq. Belə ki, o, həmin vəsaitlərin ofşor zonalarda, yaxud da İsveçrə və ya ABŞ banklarında olmasının mənbəyini aşkara çıxardıqdan sonra Ermənistan büdcəsinə qaytarılması təmin ediləcək. Daha doğru desək, ali təhsili olmasa da, o, çox bic və təcrübəli adamdır. Ən azından, formal bəhanələrlə oliqarxların bir qismini həbs edəcək və istintaq gücü ilə onların maliyyə mənbələrinin öyrənilməsi prosesinə girişəcək. Çünki hazırda Ermənistan xəzinəsi boşdur. Yeganə köməyi Rusiya və Qərb diasporu edir. Paşinyana daha çox pul lazımdır ki, ölkəsinin maddi rifahını təmin edə bilsin. Bu zaman Paşinyan hədəf kimi Qərb qanunvericiliyini götürəcək.

Qeyd edək ki, Paşinyan ilk vaxtlar Rusiyanı narazı salacaq addımlar atmayacaq və Moskva ilə münasibətləri qoruyub-saxlamağa çalışacaq və ən əsası isə Gümrüdəki hərbi bazanın çıxarılması və Rusiya ilə bağlanmış hərbi müqavilənin denonsasiyası bir qədər sonra gündəmə gələcək. Digər tərəfdən o da bəllidir ki, Paşinyan Ermənistanda qanunların demokratik məzmun kəsb etməsini təmin etməyə çalışar. Bu fonda o, Qərbin güclü dəstəyini qazanmaq üçün Avropa İttifaqı ilə assosiativ sazişi də gündəmə gətirə bilər. Bildiyimiz kimi, Qərb assosiativ üzv olan ölkələrə böyük miqdarda pul ayırır. Zənnimcə, Ermənistan Avrasiya İttifaqı və KTMT-də qalmaqla Qərblə assosiativ sazişi imzalaya bilər.

### Qərb Ermənistana lazımı siyasi və maddi dəstəyi verməyəcək

Ermənistan əhalisi uzağı 3-4 aya seçdiyi baş nazirdən ölkədə maddi rifahın yüksəldilməsini tələb etməyə başlayıb. Çünki fakt budur ki, Ermənistan kasıb ölkədir və bütün sənaye müəssisələri borc qarşılığında Rusiyaya satılıb. Bu fonda, Paşinyanın ciddi manevrlər edəcəyi mümkündür. Paşinyan erməni hiyləgərliyinə xas olan metodla Qərbdən çoxlu vəsait qopara bilər. Qərb verəcəyi böyük vəsaitlərin qarşılığında rus bazalarının Ermənistandan çıxarılmasını və Rusiya ilə imzalanmış uzunmüddətli hərbi müqavilələrin birtərəfli qaydada ləğvini irəli sürə bilər. Məsələn, bir neçə gün öncə, Rusiyanın Ermənistana satdığı silahları göstərə bilərik.

Ancaq Qərbi də unutmaq lazım deyil. Çünki qoca qitənin istəkləri çoxdur və hətta izafidir. Misal üçün, Qərb Paşinyandan mütləq NATO-nun Cənubi Qafqaza doğru genişlənməsi istiqamətində addımlar atmasını istəyəcək. Əks təqdirdə Qərb Ermənistana lazımı siyasi və maddi dəstəyi verməyəcək. Paşinyanın isə ehtiyat siyasi davranışları üçün çıxış yolunun olmadığı indidən bəllidir. Bu isə, Ermənistanda yeni rəngli inqilabın yetişəcəyini xəbər verir. Beləliklə, deyə bilərik ki, əgər Qərb edəcəyi referanslar müqabilində Paşinyanın bütün resurslarını öz tərəfinə çəkməyə çalışacaq. Bu isə, ən sonda Rusiya ilə Ermənistan arasında qarşıdurmaya səbəb olacaq. Qərblə əlaqə, sadəcə, demokratiya ilə bitmir, həm də Ermənistanın bəzi Avropa strukturlarına inteqrasiyasını gündəmə gətirir. Yəni təkcə siyasi deyil, hərbi inteqrasiya da lazım olur. Bu isə Ermənistanın çox mürəkkəb mərhələdən keçməsinə gətirib- çıxaracaq. Bir sözlə, Paşinyan ən optimal variantı tapa bilməsə, Ermənistan məhv olacaq. Artıq bü faktın gerçəkliyi göz önündədir...

**Rövşən NURƏDDİNOĞLU**

## "Nar" və "Avtostop"un birgə müsabiqəsinin qalibləri müəyyənləşdi




***"Nar" və DJ Turalın müəllifi olduğu "Avtostop" radio verilişinin birgə keçirdiyi yol hərəkəti qaydaları haqqında müsabiqə başa çatdı. Aprel ayından etibarən keçirilən müsabiqənin 8 qalibi "Nar"-dan 3 ay aylıq "Full 14" paketi və "Nar" nömrəsi qazandılar.***

Qeyd edək ki, "Avtostop" verilişi ərzində dinləyicilərə həm də "Full" paketi haqqında məlumat ətraflı verilir. "Full 14" paketində abunəçilərə təqdim olunan danışıq və internet bonusları, tam istifadə olunmadığı halda, növbəti aylara keçir. "Nar"-a qoşulmaq və sərfəli "Full" paketlərindən istifadə etmək istəyənlər nar.az/full səhifəsindən özlərinə uyğun "Full" paketi seçə bilərlər. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayıb. Hazırda "Nar" şəbəkəsi ölkə ərazisinin 93%-ni əhatə edir. "P3 Communications" tərəfindən 2017-ci ildə keçirilmiş şəbəkə sınaqları nəticəsində Nar şəbəkəsi "ən yaxşı mobil zəng xidməti" göstərən şəbəkə olaraq tanınıb.

# "Rusiya Ermənistanla münasibətlərini dəqiqləşdirməyib"

## *Rüstəm Məmmədov: "Ermənistan bu günə qədər etdiyi hər bir əməlinə görə cavab verəcək"*

***- Rüstəm müəllim, ATƏT-in Minsk Qrupunun həmsədrləri Ermənistan-Azərbaycan danışıqlarının davam etdirilməsi üçün prezidentlərin görüşünün keçiriləcəyi barədə fikir səsləndiriblər. Bu görüş münaqişənin həllində nəyi dəyişə bilər?***

- Birmənalı şəkildə, faktlara istinadən demək olar ki, Azərbaycan və Ermənistan prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı görüşlərinin keçirilməsi problemin həllinə yardımçı ola bilməz. Çünki Ermənistan qeyri-konstruktiv mövqe sərgiləyir.

***- Bəzi siyasi şərhçilər Dağlıq Qarabağ münaqişəsinin həllinin açarının Ermənistanda deyil, Rusiyanın əlində olduğunu bildirirlər. Nə dərəcədə əsaslıdır?***

- Düzdür, işğalçı ölkə olan Ermənistan Rusiyadan asılı bir ölkə idi. Amma indiki məqamda Rusiyanın özü Ermənistanla münasibətlərini dəqiqləşdirməyib. Bu baxımdan da, bu günləri Rusiya faktoru Ermənistan üzərində qeyri-müəyyəndir. Ümumiyyətlə, bu gün heç Ermənistanın özü bilmir ki, nə istəyir.



*Müsahibimiz politoloq Rüstəm Məmmədovdur*

***- Niyə dünyanın güc mərkəzləri işğalçı Ermənistana layiq olduğu cavabı vermir?***

- Onsuz da bütün beynəlxalq təşkilatlar, dünyanın aparıcı dövlətləri Ermənistanın işğalçılıq siyasətini və bu işğalçılıq zamanı törətdiyi vəhşilikləri çox gözəl bilirlər. Amma bu günə qədər işğalçı ölkənin vəhşiliklərinə dünyanın aparıcı dövlətlərinin təzyiq vasitəsi olaraq tədbirlər görməmələri münaqişənin həllinə ikili yanaşmalarının nəticəsidir. Amma ümid edirəm ki, Ermənistan bu günə qədər etdiyi hər bir əməlinə görə cavab verəcəkdir.

***- Niyə görə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Dağlıq Qarabağ münaqişəsinin həllində fəaliyyətləri qaneedici deyil?***

- ATƏT-in Minsk Qrupu həmsədrlərinin əsas işi Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etməkdir. Amma bu gün biz həmsədrlərin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fəaliyyətlərinə baxanda, irəliyə doğru addım görmürük. Çünki ATƏT-in həmsədr dövlətləri olan Rusiya, ABŞ və Fransa, yəni bu üç dövlətin heç biri bu məsələdə hələ öz mövqeyini dəqiqləşdirə bilməyiblər. Daha doğrusu, bunlarda fikir aydınlığı yoxdur. Bu baxımdan, münaqişə ilə bağlı ATƏT-dən nə isə bir irəliləyiş gözləmək olmur.

**GÜLYANƏ**

# Uşaqların hüquqlarının müdafiəsi günü

***Beynəlxalq cəmiyyətin inkişafının müasir mərhələsi insan hüquqlarının ən ali dəyər kimi tanınmasına gətirib çıxarmışdır. İnsan hüquqları olmadan müasir həyatı təsəvvür etmək mümkün deyildir, çünki bu hüquqlar azadlıq, bərabərlik və ədalət prinsiplərinə əsaslanaraq, universal xarakter daşıyır. Dövlət və hüquq haqqında bütün elmlər insan hüquqlarını əhatəli hüquq kimi öyrənir. İnsan hüquqlarını əhatə edə bilməyən və onu nəzərə almayan istənilən hüquq nəzəriyyəsi tam ola və yaşaya bilməz. İnsan hüquqları istənilən demokratik cəmiyyətin əsasını təşkil etməlidir. İnsan hüquqlarını tam həcmdə tanımadan və onların təminatının etibarlı sistemi olmadan, demokratiya və azadlıq yoxdur. Başqa sözlə, ancaq insan hüquqlarına hörmət edilməsi dövlətlərdə həqiqi demokratik rejimin bərqərar olmasına və onlar arasında dinc münasibətlərin təmininə kömək edə bilər.***

İnsan hüquqları haqqında normalar ümumi beynəlxalq hüququn tərkibinə daxil olmaq, onlara hörmət edilməsi isə, bütövlükdə, beynəlxalq cəmiyyətin qayğısına çevrilməklə, XXI əsrin gündəliyində duran mərkəzi qlobal problemlərdəndir və onun həlli həlledici dərəcədə digər ümuminsani problemlərin həllindən asılıdır. İnsan hüquqları sahəsində dövlətlərin öhdəliklərinin ciddiliyi və genişliyi də (müxtəlif istiqamətlərdə təsnifatı) problemin əhəmiyyətini artırır.

Nadir Adilov yazır: "Uşaq hüquqlarının beynəlxalq və milli-hüquqi aspektdə təminatında mühüm problemlərin mövcudluğu da qeyd edilən məsələlərin ayrılıqda və geniş tədqiqatını əsaslandırır. Bu zaman beynəlxalq hüquq normalarının realizəsi istiqamətində uşaq hüquqlarının təminatı üzrə dövlətlər tərəfindən həyata keçirilən dövlətdaxili fəaliyyətin hərtərəfliliyi və ona daha diqqətli, eyni zamanda, spesifik yanaşma zəruriliyi hiss edilir. Belə ki, haqlı olaraq göstərilir ki, beynəlxalq hüquq özünün əsas insan hüquq və azadlıqlarını müdafiə etmək üçün bərabər imkanları olmayan cəmiyyətin zəif qruplarının müdafiəsi üçün xüsusi tədbirlər nəzərdə tutur ki, bunlara da, birinci növbədə, uşaqlar aiddir.

Beləliklə, uşaq hüquqlarının təmək sahəsində səyləri də artır. Belə ki, dünyada üzə çıxarılan faktların bəziləri aşağıda sadalanır: öz ailələri tərəfindən küçəyə atılan 100 milyona yaxın uşaq yalnız yorucu işlər, xırda oğurluq, fahişəlik və dilənçilik hesabına yaşaya bilir; 50 milyondan çox uşaq sağlamlıq üçün təhlükəli və ya zərərli işlərdə çalışır, 6-11 yaşında 120 milyon uşaq məktəbə getmək imkanından məhrumdur, hər il təqribən 3,5 milyon uşaq profilaktikası və müalicəsi mümkün olan xəstəliklərdən ölür; inkişaf etməkdə olan ölkələrdə 5 yaşınadək təqribən 155 milyon uşaq tamamilə yoxsulluq şəraitində yaşayır; daha varlı cəmiyyətlərdəki bir çox uşaqlar da daxil edilməklə milyonlarla uşaq qayğıdan məhrumdur, pis rəftara, seksual istismara məruz qalır və ya narkotikdən sui-istifadənin qurbanı olur. Qeydə alınmışdır ki, 2000-ci ilin son onilliyində 2 milyona yaxın uşaq münaqişələr zamanı öldürülmüşdür. Digər 6 milyonu yaralanmış və 1 milyonu valideynsiz qalmışdır.

Ermənistanın Azərbaycana təcavüzü, yenicə müstəqilliyini əldə etmiş Azərbaycan Respublikasının ərazisinin iyirmi faizindən çoxunun işğalı və bir milyondan çox qaçqın və məcburi köçkün problemi ilə yanaşı, digər ciddi problemlərə görə, Ermənistanın təcavüzü nəticəsində 4861 nəfər hərbi əsir, girov və xəbərsiz itkin düşənlərin siyahısına daxil edilmişdir. Onlardan 314 nəfəri qadın, 58 nəfəri uşaq və 255 nəfəri qoca adamlardır. Həmin kateqoriyadan olan şəxslərdən Ermənistan Respublikası və Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində 900 nəfərin, o cümlədən, 39 qadın, 12 uşaq və 39 yaşlı adamın saxlanıldığı yer məlumdur. Qalan şəxslərin saxlanıldığı yer bəyan edilməmişdir. Bu isə həmin şəxslərin ağır fiziki əməyə cəlb edilməsinə, döyülməyə, işgəncəyə məruz qalmasına, həmçinin, elementar tibbi yardımdan məhrum olmalarına imkan yaradır. Dövlət Komissiyasına 145 azərbaycanlı müharibə qurbanının əsirlikdə ölməsi faktı da məlumdur.

Beynəlxalq və dövlətdaxili hüquq normalarının qarşılıqlı əlaqə məsələlərinə kifayət qədər tədqiqatlar həsr edilsə də, hal-hazırda da hüquq elminin aktual və mürəkkəb problemlərindən biri kimi qalmaqda davam edir. Bunun praktik əhəmiyyəti, nəinki beynəlxalq hüququn ənənəvi subyektləri üçün, həm də dövlətdaxili hüququn subyektləri-beynəlxalq hüquq normalarının realizəsində iştirak edən dövlət orqanları, hüquqi şəxslər və fərdlər üçün də artır. Beynəlxalq hüquq normalarının səmərəliliyi, nəinki onlara beynəlxalq səviyyədə əməl edilməsindən, həmçinin, dövlətdaxili münasibətlərə necə realizə edilməsindən asılıdır.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

minatı və müdafiəsi dövlətlərin və beynəlxalq cəmiyyətin, bütövlükdə, əsas vəzifəsidir. Əgər biz uşaqlara, nəinki ən zəruri hüquqlar sistemini təqdim edirik, eyni zamanda, onların bilavasitə həyatına aid qərarların qəbul edilməsində iştirak imkanı, səmərəli fəaliyyət göstərən məhkəmə sistemi yaradırıqsa, uşaqları bədbəxtlik və istismardan qoruyuruqsa, onda ədalətli cəmiyyətin əsasını qoyuruq". Britaniyalı alim N.Makkorimanın (1976) fikrincə, uşaq hüquqlarını əhatə edə bilməyən istənilən hüquq nəzəriyyəsi yetkin deyildir.

Uşaqlar beynəlxalq cəmiyyət və dövlətlər tərəfindən xüsusi mühafizə və qayğıya möhtacdırlar. Bu isə uşaq hüquqlarının həyata keçirilməsi və realizəsində məqsədyönlü dövlət siyasətinin həyata keçirilməsini tələb edir. Uşaqlar barəsində dövlət siyasəti isə, uşaqların zəruri maddi və məişət şəraitinin təmin olunmasına, onların layiqli vətəndaş kimi böyümələrinə şərait yaradılmasına xidmət edir. Eyni zamanda, uşaqların düçar olduqları məhrumiyyətlər və sui-istifadələr haqqında daha çox faktlar üzə çıxdıqca, beynəlxalq birliyin uşaq hüquqlarını möhkəmləndirlər də yaratmışdır. İşğal olunmuş ərazilərdə 6 minə yaxın kənd təsərrüfatı və sənaye obyekti, 102 min yaşayış evi, 4366 sosial-mədəni obyekt, 7 min ictimai bina, 693 orta məktəb, 855 məktəbəqədər müəssisə, 695 xəstəxana və digər tibb müəssisələri, 10 məscid, 160 körpü, 368 klub, 927 kitabxana, 85 musiqi məktəbi, 464 muzey və tarixi abidə, 6 dövlət teatrı dağıdılmış, 800 km-lik dəmir yolu və avtomobil yolları, 15 min km elektrik və qaz xətləri, 2300 km-lik regional əhəmiyyətli su kommunikasiya sistemləri sıradan çıxarılmış, 31 məscid, 9 tarixi-saray, 1 milyon hektar kənd təsərrüfatı sahəsi, 250 min hektar meşə sahəsi, 200 paleontoloji, geoloji abidə erməni separatçıların əlinə keçmişdir. Erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı törətdiyi Xocalı soyqırımı adları bəlli olan 613 nəfərin, o cümlədən, 106 qadının, 63 azyaşlı uşağın, 70 qocanın həyatına son qoymuş, 487 nəfər şikəst olmuş, 1275 dinc sakin əsir götürülmüş, 150 nəfər itkin düşmüşdür. Hərbi əsirlər, girovlar və xəbərsiz itkin düşən Azərbaycan vətəndaşlarının işləri üzrə AR Dövlət Komissiyasının məlumatı-

Bütün sahələrdə olduğu kimi, insan hüquqları sahəsində beynəlxalq hüququn milli qanunvericiliyin təkmilləşdirilməsi faktoru kimi çıxış etməsi tam əsaslıdır. Lakin qeyd edilənlər heç də dövlətdaxili hüququn rolunu azaltmır. Belə ki, beynəlxalq və dövlətdaxili hüquq normaları ilə nəzərdə tutulan insan hüquq və azadlıqları, nəinki bəyan olunmalı, eyni zamanda, dövlət tərəfindən təminatı və müdafiəsi də təmin edilməlidir. AR-də insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planının təsdiq edilməsi haqqında 28 dekabr 2006-cı il tarixli AR Prezidentinin Sərəncamında qəbul ediləcək normativ-hüquqi aktlarda insan hüquq və azadlıqlarının əsas meyar kimi rəhbər tutulması və dövlətdaxili normativ-hüquqi aktların beynəlxalq-hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi mühüm prinsip kimi müəyyən edilmişdir. AR Prezidentinin 2009-cu il 18 fevral tarixi Sərəncamı ilə təsdiq edilmiş "2009-cu ilin "Uşaq İli" elan edilməsi ilə bağlı Tədbirlər planı"nda Azərbaycan uşaqları haqqında məlumat bankının və internet saytının, xüsusi portalın yaradılması, müasir ailə modelinə dair müvafiq tövsiyələrin hazırlanması, respublika uşaq yaradıcılıq festivalının, habelə, Beynəlxalq Bakı Uşaq Rəsm Müsabiqəsinin və "Şərq-Qərb" Beynəlxalq Uşaq Rəqs Festivalının keçirilməsi, eləcə də, BMT-nin "Uşaq hüquqlarına dair" Konvensiyası ilə bağlı maarifləndirmə işinin gücləndirilməsi, uşaqların İntellektual inkişafına, onların vətənpərvərlik, milli-mənəvi dəyərlərin qorunması və tolerantlıq ruhunda tərbiyə edilməsinə yönəldilmiş müxtəlif tədbirlərin təşkil edilməsi, xaricdə yaşayan azərbaycanlı uşaqlara ana dilinin öyrədilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi, "Uşaq İli" ilə bağlı yeni teatr tamaşalarının hazırlanması, dövlət uşaq müəssisələrində tamaşaların və konsert proqramlarının təşkili nəzərdə tutulmuşdur.

Bu zaman bir sıra digər faktorlar da qeyd edilə bilər. Məsələn, beynəlxalq cəmiyyətdə uşaqların real vəziyyəti ilə onların hüquq və maraqlarına təminat verən normativ-hüquqi aktlar arasında uyğunsuzluğun mövcud olması; uşaqların inkişafına və normal böyüməsinə, o cümlədən, təhsilinə ciddi mənfi təsir edən uşaq əməyinin, uşaq alverinin geniş yayılması; beynəlxalq cəmiyyətin qloballaşması dövründə uşaqların hüquqlarının müdafiəsi sahəsində hərtərəfli siyasətin və s.

N.Adilovun fikrincə, uşaq hüquqlarının müdafiəsi istiqamətində beynəlxalq təşkilatların (BMT, BƏT, ÜST, YUNİSEF və s.), o cümlədən, beynəlxalq qeyri-hökumət təşkilatlarının normayaradıcılıq fəaliyyətinin formalaşması və daha da genişlənməsi də tədqiqatın aktuallığını bir daha əsaslandırır. Bundan başqa, hərbi konfliktlər dövründə uşaq hüquqlarının müdafiəsinin kifayət qədər problemlərlə və beynəlxalq hüquq normalarının kobud şəkildə pozulması ilə müşaiyət olunması da məsələnin beynəlxalq hüquq müstəvisində insan hüquqları kontekstində həll edilməsini əsaslandırır. Buna görə də, hərbi konfliktlər dövründə uşaq hüquqlarının qorunması sahəsində dövlətlərin əməkdaşlığı mühüm problemlərdəndir.

**Vahid Ömərov,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# “Qafqaz üçlüyü” filmi Rüstəm İbrahimbəyovun növbəti xəyanətidir

***“Müxalifət” anlayışı, əfsuslar olsun ki, bizdə xəyanət deyilən satqınlıq kimi başa düşülür. Yaxud xəyanətkarlar etdikləri xəyanətləri müxalifət komuflyajı altında ört-basdır etməyi düşünürlər. Yəni doğrudanmı öz xalqını, vətənini, dövlətini, milli maraqlarını satan, düşmən dəyirmanına su tökən xəyanətkarlar elə başa düşürlər ki, bu, müxalifətçilikdir?***

Azərbaycanın hüdudlarından kənarda olan mühacirlərdən tutmuş bir sıra üzdəniraq “ziyalılara” qədər kim özünü müxalifətçi hesab edirsə, yalnız bu xalqın, hətta millətin əleyhinə fəaliyyət üzərində köklənib. Biri adını “siyasətçi” qoyub, tərbiyəsizliklə siyasi mübarizəni qarışdıraraq xəyanət edir, digəri də “ziyalı” adı altında ziyasızlıq, hətta həyasızlıq və satqınlıq edərək, yalnız xəyanətkarlığını nümayiş etdirir. Azərbaycan cəmiyyətində belə ünsürləri necə adlandıraq? Bunlara cəmiyyətin tör-töküntülərimi deyək, satqınlarımı deyək, xəyanətkarlarımı deyək, yoxsa eləcə müxalifət desək, kifayət edər?

### Əylislinin “yuxuları”ndan sonra Rüstəm İbrahimbəyovun “Qafqaz üçlüyü” cəmiyyətdə ciddi rezonans doğurub və hiddətlə qarşılanıb

Bir müddət əvvəl, Əkrəm Naibovun “Daş yuxuları” cəmiyyətdə ciddi bir rezonans doğurdu və onun bu cızmaqarasını, hətta xəyanətin qapısı da adlandırmaq olar. Çünki onun Azərbaycanı və azərbaycanlıları aşağılamaq cəhdləri bir müddət sonra tamam başqa bir müstəviyə, mühacirlər müstəvisinə daşındı. Ə.Əylisli imzası ruh verə bilməzdi axı xain qəlbli insanlara. Bu yazarın “yuxuları” hiddətlə qarşılandı və ictimai qınağa səbəb oldu axı. Cəmiyyətimiz Əylislini qınadı desək, fikrimizi tam ifadə edə bilmərik. Çünki bu qınaq nifrətə belə çevrildi. Belə olan halda, orduxanlar, mirzəlilər, sadıqlılar, yunuslar bəs bu xalqın nifrətindən, onlara qoyulan xəyanətkar damğasından heçmi çəkinmədilər, qəlblərində olan xəyanət toxumlarını cücərtmək üçün nəyə istinad etdilər?

Əylislinin “yuxuları”ndan sonra indi də Rüstəm İbrahimbəyovun “Qafqaz üçlüyü” filmi cəmiyyətdə ciddi rezonans doğurub və ölkə ictimaiyyəti bu ssenaristin əsl simasının Əkrəmin simasından fərqlənmədiyinin də dəfələrlə şahidi oldu. İllərlə öz içində saxladığı və bu xalqa qarşı bəslədiyi kinini son dərəcə çılpaqlığı ilə ortaya qoydu İbrahimbəyov. Doğrudur, İbrahimbəyovun ssenarisi ilə çəkilən filmlərin əksəriyyətində Azərbaycan cəmiyyəti eyiblərlə dolu bir cəmiyyət kimi təqdim edilib. Məsələn, “Bir cənub şəhərində” filmində Azərbaycan gəncliyini küçədə avara kimi qələmə verən kinossenaristin elə əvvəldən də bu xalqa qarşı kini, aşağılamaq cəhdləri bəlli idi. Nəinki, bu xalqa, hətta türk millətinə olan antipatiyası da gizli deyildi və “Səhranın bəyaz güneşi” filmində də türk əsilli Abdullanı qorxaq kimi təqdim etməsi sadalananları təsdiq edir.

### Erməni ictimai-siyasi dairələrinin “bravo” deməsi bu ssenaristin onların maraqlarını müdafiə etdiyini təsdiq edir

Maraqlıdır, R.İbrahimbəyov özünü bu millətin, bu xalqın nümayəndəsi hesab etmirmi? Görəsən, azərbaycanlılara, bütövlükdə isə, türk dünyasına nifrət edən, əleyhində fəaliyyət göstərən erməni ictimai-siyasi dairələri bu ssenaristə niyə “bravo” deməlidir? Yəni ermənilər onun bu xalqın, bu



millətin əleyhinə olan fəaliyyətindən belə razıdırlar ki, onu xüsusilə, dəyərləndirirlər? Yoxsa üzdəniraq qonşularımızla, işğalçılarla, terroristlərlə onu birləşdirən hansısa tellər, məsələn, qohumluq kimi əlaqələr var? Əks halda, ermənilərə olan bu sevgi hardan qaynaqlana bilər? Azərbaycan xalqını qədədar, yalançı, mədəniyyətsiz, milli kökləri olmayan, erməniləri isə kübar, “türkün qurbanı” olan mədəni xalq kimi təqdim edən İbrahimbəyov erməni maraqlarını, özü də riyakarcasına niyə müdafiə etməlidir?

Əgər Maqsud İbrahimbəyov kimi qardaşı olmasaydı, Rüstəmin erməni olduğuna belə şübhələrin əsası var idi və inanmaq olmur ki, onun belə bir qardaşı var. Doğrudur, məhz layiqli olduğuna və dəyərli fəaliyyətinə görə bu xalq M.İbrahimbəyovu unutmayacaq. Onun xatirəsinin əbədi olaraq yaddaşlarda yaşamasını da inkar etmək olmaz və ona qarşı bu xalqın hörmət və ehtiramı da göz qabağındadır. Amma Rüstəmin bu ehtirama zərrə qədər ümidi yoxdur və əksinə, öz çirkin, məkrli fəaliyyəti ilə nifrət qazandığının fərqindədir. Çünki Maqsud İbrahimbəyov milli maraqları, bu xalqın mənafeyini üstün tutduğu halda, qardası bunun əksini düşünüb. R.İbrahimbəyov bu xalqın, bu millətin nümayəndələrini deyil, məhz erməniləri, rusdilli əhalini üstün hesab edib. Kim rus dilində danışıbsa, baxmayaraq ki, o, erməni-dir, yaxud digər bir milli mənsubiyyəti var, onu kubar hesab edən ssenarist, rusdilli olmayan azərbaycanlıları “çuşka” hesab edib. Hətta Qarabağda döyüşən, şəhid, yaxud qazi olan həmvətənlərimizi belə onun nəzərində heç də ermənilərdən, rusdillilərdən üstün deyildi. Bu ruhda kim tərbiyə etmişdi R.İbrahimbəyovu? Bəlkə elə “Milli Şura” adı altında birləşən milli xəyanətkarlar? Axı onlar da xəyanətlərə rəvac verən ünsürlər hesab olunur və mühacir xəyanətkarlardan tutmuş, elə İbrahimbəyovun özünə qədər kimin mənfur əməli peyda olursa, daşın altından bu “şura”, onun xəyanət üzərində köklənmiş məfkurəsi, siyasəti çıxır. Bunların bir zamanlar bir yerdə olduğu, hətta “şura”nın, məhz R.İbrahimbəyovu dəstəkləməsi, onun namizədliyi üçün dəridən-qabıqdan çıxması deyilənləri təsdiq edə bilər. Hətta bu gün bu “Milli Şura” adı altında birləşən və aksiyalarından tutmuş video-müraciətlərinə qədər “sevgili millət” deyə xalqa xitab edənlər hələ də susurlarsa, hələ də R.İbrahimbəyovun bu “Qafqaz üçlüyü” filmi, onun xəyanətkarlığı barədə fikir bildirmirlərsə, bu, ümumiyyətlə, o deməkdir ki, Rüstəm heç də tək deyil və onun “şura” kimi, radikallar kimi əqidədaşları var.

İstər Rüstəm olsun, istər Əli olsun, istərsə də Orduxan, sadalanan adlar şərtidir və bunların yeganə adı var, xəyanətkar və bunları birləşdirən erməni sevgisi, erməninin büdcəsindən əldə etdikləri vəsaitlərə olan sevgidir. Rüstəm İbrahimbəyova bilməsə belə, məlumatsız olsa belə, ermənilərin törətdikləri vəhşilikləri, Azərbaycan torpaqlarında işğal faktlarını bir-bir sadalamaq olar. Amma qeyd etdiyimiz kimi, əgər digərləri kimi bu ünsürün də erməni və erməni puluna olan sevgidən başqa qəlbində yer yoxdursa, təbii ki, ona yalnız bir söz söyləmək olar: “Qafqaz üçlüyü” filmi Rüstəm İbrahimbəyovun növbəti xəyanətidir.

***İnam HACIYEV***

# Müsavatın AXCP planları-vəziyyət yenidən gərginləşir

Bir müddətlik sakitlikdən sonra, daha dəqiq desək, bu ilin prezident seçkilərindən öncə, birgə uğursuz mitinq keçirdikdən bəri əzəli düşmənlər olan Azərbaycan Xalq Cəbhəsi Partiyası ilə Müsavat partiyası arasındakı ənənəvi intriqacılıq qığılcımı yenidən alovlanmağa başlayıb. Lakin daha öncəkilərdən fərqli olaraq, bu dəfə Müsavat tərəfi AXCP-yə qarşı maraqlı hücum taktikası seçərək, cəbhəçiləri ikitirəlik salmaqda və düşərgəyə xəyanətdə ittiham edib. Əslində isə, heç də yeni mövzu olmayan və davamlı olaraq baş qaldıran hər iki partiya arasındakı ziddiyyətlər ilk baxışdan təəccüblü görünməsə də ümumilikdə, belə vəziyyətdə ictimai rəyə, xüsusilə, siyasətlə maraqlanan kəsimə yeni detallar bəlli olmağa başlayır. Daha dəqiq desək, ifşaolunma faktorunun təməli, məhz bu kimi qarşıdurmalardan qaynaqlanır.

### Müsavat başqanının cəbhəçilərə qarşı total hücumlara başlaması arxasında hansı amillər dayanır?

Yeri gəlmişkən, xatırlatmaq yerinə düşərdi ki, Arif Hacılı hələ Müsavat başqanlığına saxtakarlıq vasitəsilə yiyələnər-yiyələnməz keçirdiyi mətbuat konfransında bəyan etmişdi ki, onun AXCP ilə hər hansı bir problemi yoxdur və Müsavat rəhbərliyi cəbhəçilərlə yeni açılan səhifədən əməkdaşlığa gedə bilər. Hətta o öz təklifləri ilə Əli Kərimlinin ayağına gedərək, xələfi İsa Qəmbərin AXCP-yə münasibətdə səhv yol verdiyini dolayısı ilə isbatlayaraq, “xoşməramlı” sələf olduğunu sərgiləməyə cəhdlər etdi. Çünki sirr deyil ki, Müsavatın AXCP ilə münasibətləri sonuncu dəfə birincinin “Milli Şura”nın sıralarını tərk etməsindən sonra pozulmuşdu. Həmin vaxt sabiq başqan İ.Qəmbər bəyan etmişdi ki, “Milli Şura” rusiyapərəst mövqedən çıxış edir və bu faktor Müsavatın qərbyönlü siyasəti ilə üst-üstə düşmür. Ancaq sonradan A.Hacılının “Milli Şura” ilə birgə mitinqlərə qatılması və həmin mitinqlərdən uğur əldə edə bilməməsi, əslində, İ.Qəmbərin nproqnozlarını doğrultdu. Xüsusilə, sonuncu seçkilərdən sonra əsl reallıq ortaya növbəti dəfə çıxdı. Halbuki yuxarıda da qeyd etdiyimiz kimi, A.Hacılı AXCP-yə əməkdaşlıq təklifini irəli sürmüşdü və onda Ə.Kərimli onun bu təklifinə, birmənalı olaraq, rədd cavabı vermişdi. Görünür, bu səbəbdən, Müsavat başqanı indi də “b” planını işə salaraq, cəbhəçilərə qarşı total hücumlara start verməyə hazırlıq görür. Artıq bunu sosial şəbəkələrdəki müsavatçıların statuslarında və müsavatyölü mətbuatda da görmək mümkündür. Düzdür, hələlik, müsavatçıların rəhbəri, bilavasitə ittiham fikirlərini irəli sürməsə də, onun müavinləri Ə.Kərimlini, AXCP-ni və “Milli Şura”nı çox kəskin şəkildə asıb-kəsirlər. Bu xüsusda Müsavat partiyasının məclis üzvü Mustafa Hacıbəyli, partiyanın mərkəzi icra aparatının sədri Gülağa Aslanlı, başqan müavini Səxavət Soltanlı, eləcə də, “Əhrar” partiyasının sədri, başqan A.Hacılının qardaşı Vaqif Hacıbəyli xüsusi canfəşanlıq göstərirlər.

### Cəbhəçilər nəyə görə Əli Kərimlinin adının ikinci sırada yazılmasından hiddətləniblər?

Digər maraqdoğurucu məqamlardan biri isə A.Hacılının daha bir müavini - Osman Kazımlının Ə.Kərimliyə qarşı başladılan total hücumlara qoşulmasıdır. O öz partiyadaşlarından daha sərt tonda danışaraq deyib ki, Ə.Kərimlini ümumi maraqlar deyil, AXCP və “Milli Şura”nın maraqları düşündürür. Ümumiyyətlə, O.Kazımov sosial şəbəkələrdə az görünməyə çalışır, ancaq görünən vaxtlarda əsas hədəf kimi AXCP və “Milli Şura”nı, xüsusilə, Ə. Kərimlini özünəməxsus incə üsullarla “vurur”.

Məsələn, seçkilərdən qabaq O.Kazımlı “facebook” səhifəsində “Milli-Strateji Düşüncə Mərkəzi”nin rəhbəri İsa Qəmbərə, Müsavat partiyasının başqanı A.Hacılıya, AXCP sədri Ə.Kərimli və KXCP sədri Mirmahmud Mirəlioğluna birlik çağırışı etmişdi və belə bir məqamda ilk baxışdan təəccüblü nə isə görünmür. Yəni kənardan baxan belə düşünə bilər ki, O.Kazımov müxalifətə birlik çağırışı edib. Ancaq...

Ancaq sən demə, Ə.Kərimlinin gözüaçıq sosial şəbəkə qrupları və saxta profillərlə onun reklamını aparanlar bu məqamı tutublar, sonra da müsavatçıya qarşı hamləyə keçiblər. Cəbhəçilər müsavatçı O.Kazımlıya qarşı hücuma keçərək, nəyə görə sözügedən müraciətində AXCP sədrinin adının ikinci sırada (?!-R.R.) yer almasını ittiham, söyüş və təhqir ab-havası ilə soruşublar. Bunun ardınca isə AXCP sədri Ə.Kərimli “Azadlıq” Radiosuna açıqlamasında təklifə ciddi yanaşmadığını sərgiləmişdi. Həmim sitatı bir daha xatırladaq: “Biz bir yerdəydik - “Milli Şura”daydıq. Davam etmək istəsəydilər, bizimlə davam edərdilər. Çox təəssüf ki, “Milli Şura”nı tərk ediblər”. Lakin uğursuz mitinqləri son anda Ə.Kərimlinin müsavatçılara tərəf addım atmasına səbəb oldu. Lakin müvəqqəti. Çünki hazırkı məqamda biz, bu düşmənçiliyin ardını görməkdəyik.

***Rövşən RƏSULOV***

# Məşhur amerikalı aktrisa irqçi fikirlərinə görə cəzalandırılıb

Amerika Birləşmiş Ştatlarının məşhur aktrisası Roseanne Barr sosial mediadakı səhifəsində ABŞ-ın sabiq Prezidenti Barak Obamanın xanım məsləhətçisi Valerie Jarreti haqqında irqi ayrı-seçkiliklə bağlı paylaşdığı fikrə görə cəzalandırılıb. Aktrisa bu hərəkətinə görə ABC kanalında yayımlanan serialdakı rolundan uzaqlaşdırılıb.

Məsələyə münasibət bildirən Valerie Jarreti bildirib ki, yəqin aktrisa paylaşdığı fikrin mahiyyətini dərk etməyib. Roseanne Barr isə hərəkətindən peşman olduğunu deyib. O, etdiyi əməli pis zarafat adlandırıb və buna görə üzr istəyib.

# ORUC TUTANLAR ÜÇÜN: Pomidor suyu 8 saat ərzində toxluq hissi verir

Türkiyəli professor Oğuz Özyaral oruc tutan insanların mümkün qədər bədənin su ehtiyacını təmin edəcək yeməklər istehlak edilməsi lazım olduğunu söyləyib. Pomidorun bir çox faydasının olduğuna işarə edən Dr.Özyaral, "pomidor illərlə dərman kimi də istifadə edilib. Bu gün bu tərəvəzi suplarda, salatlarda, yeməklərdə və meyvə suyu kimi istifadə edirik. Pomidor suyu tərəvəzin ən qidalandırıcı xüsusiyyətidir və sağlamlıq üçün bir çox faydası var. Pomidorda olan likopen güclü antioksidantdır, xərçəng də daxil olmaqla bir sıra xəstəliyin qarşısını alır. Həmçinin 8 saat ərzində toxluq hissi yaradır. Xüsusilə oruc tutan insanlar üçün pomidor suyunun böyük faydası var. Obaşdan pomidor suyu istehlak edilməlidir", - deyə bildirib.



## Pomidorun qabığı soyulmamalıdır

Dr.Özyaral pomidorların istifadəsi ilə biyoyararlanmaların artdığına da işarə edərək, belə davam edib: "Yəni tomatı, suyu, püresi, soyutması, ya da közlənmiş halı ilə də pomidorun likopen sıxlığı təxminən dörd dəfə arta bilər. Bu da pomidor suyunun təzə pomidorlardan daha yaxşı likopen mənbəyi olduğu mənasına gəlir. Likopen pomidorun qabığında yerləşir. Buna görə də pomidor yeyilərkən qabıqları heç vaxt atılmamalıdır". Pomidorun həzm sistemini möhkəmləndirdiyini vurğulayan Dr.Özyaral, "tərkibindəki zəngin lif öd istehsalını normalaşdıraraq qəbizlik, əzələ ağrısı və hədsiz şişkinlik kimi problemləri aradan qaldırır", - deyə bildirib.

## Pomidor suyu necə hazırlanır?

Pomidor suyunun hazırlanması ilə bağlı məlumat verən Dr.Özyaral belə danışıb: "6-8 böyük pomidor, 2 kərəviz özəyi, 1 orta böyüklükdə baş soğan, təzə qırmızı soğanı, 6-7 ədəd təzə sarımsaq və ya 4-5 diş sarımsaq, 2 ədəd qırmızı bibər, 1 desert qaşığı acı qırmızı pul bibər, 1 desert qaşığı sumaq, 2 yemək qaşığı şəkər tozu, 1 çay qaşığı duz, 1 çay qaşığı təzə çəkilmiş istiot. Əvvəl bütün məhsullar kiçik parçalar halında doğranır və blenderlə yaxşıca qarışdırılır. Bu qarışıq qazana tökülərək içərisinə ədviyyat əlavə olunur. Daha sonra asta-asta qarışdırılaraq orta odda 20 dəqiqə bişirilir. Qarışıq şorba konsistensiya gələndə ocaqdan endirilir. Soyuduqdan sonra mikserlə yaxşıca püre halına gələnə qədər qarışdırılır".


## ELAN

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Dadaşova Səbinə Vaqif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

X X X

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Sosial İş ixtisası üzrə S-15 qrupunun tələbəsi Quluzadə Ceyhun Namiq oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

X X X

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Qədirov Elşən Fərəc oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

X X X

**ADPU-nun Filologiya fakültəsinin II kurs tələbəsi Zaidova Könül Adil qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.**



# səs

Son səhifə 31 may


# PSJ Kriştiano Ronaldoya illik 45 milyon avro təklif edib



Fransanın PSJ klubu Kriştiano Ronaldonu heyətinə qatmaq üçün ulduz futbolçuya illik 45 milyon avroluq məvacib təklif edib. Klubun rəsmi saytında yer alan xəbərdə deyilir ki, Ronaldo UEFA Çempionlar Liqasının finalından sonra verdiyi müsahibədə klubda qalıb-qalmayacağını hələ dəqiq bilmədiyini söyləyib. Onun bu açıqlamasından sonra Fransa klubu Ronaldoya illik 45 milyon avroluq məvacib təklif ediblər. "Fair-play" qaydalarına əsasən, PSJ portuqaliyalını transfer etmək üçün bir neçə oyunçusunu satmaq məcburiyyətindədir. Komandanı Edinson Kavani, Qonsalo Quedeş və Anxel Di Mariyanın tərk edəcəyi ehtimal olunur.




# "Altı ay da olsa bu klubda forma geymək istərdim"

"Barselona" klubunun argentinalı ulduz futbolçusu Lionel Messi Avropa klublarında yalnız Kataloniya klubunda oynayacağına söz verib. "Qızıl top"un beşqat qalibi Argentinanın "El Trece" telekanalına açıqlamasında karyerasını vətənində bitirmək istədiyini söyləyib. "Bir gün Argentinada oynamaq istədiyimi həmişə demişəm. Bunun mümkün olub-olmayacağını bilmirəm, ancaq bu fikir beynimdə həmişə var. Yalnız "Nevells Old Boys"da oynayaram, başqa klubda yox. Altı ay da olsa bu klubda forma geymək istərdim", - deyə Messi bildirib.

# Gürcüstan-İsrail voleybol oyununu azərbaycanlı hakim idarə edəcək

CEV

Avropa Voleybol Konfederasiyası (CEV) Azərbaycan hakimi Zaur Hacıyevə yeni təyinat verib. Beynəlxalq dərəcəli hakimimiz qadın voleybol komandaları arasında Gümüş Avropa Liqası çərçivəsində keçiriləcək Gürcüstan-İsrail oyununda ikinci hakim funksiyasını yerinə yetirəcək. "B" qrupunda yer alan komandaların oyununda əsas hakim türkiyəli İlhami Şenyurt olacaq. Qeyd edək ki, Gürcüstan-İsrail oyunu iyunun 2-də keçiriləcək.

# Azərbaycan avarçəkənləri "Böyük Moskva reqatası" turnirində çıxış edəcəklər




Azərbaycan da daxil olmaqla səkkiz ölkədən 750-yə yaxın idmançı avarçəkmə üzrə "Böyük Moskva reqatası" yarışlarında iştirak etmək üçün müraciət ediblər. Yarışların baş hakimi Pavel Melnikov mətbuat konfransında deyib: "Builki reqatada səkkiz ölkə iştirak edəcək. Hələlik 750-yə yaxın idmançı bu tədbirdə iştirak etmək arzusunu bildirib. Bütün müraciətlər operativ şəkildə işlənilir. Ümidvaram ki, mübarizə gərgin olacaq, yarışların qalibi isə ədalətli və güzəştsiz şəkildə müəyyən olunacaq".

AZƏRTAC xəbər verir ki, Rusiya Avarçəkmə İdmanı Federasiyasının prezidenti Aleksey Svirinin sözlərinə görə, təşkilatçılar bu reqatanın əvvəlki statusunu qaytarmaq üçün hər cür səy göstərəcəklər. O deyib: "Bu yarışlar beynəlxalq federasiyanın təqviminə daxildir. Ənənələrə hörmət əlaməti olaraq heç bir idmançı böyük Moskva reqatasına laqeyd qalmayıb. Hazırda bu turnir öz statusunu bir qədər itirib, lakin Rusiya və dünya miqyaslı reqatanın sovet dövründə qazandığı səviyyəyə yenidən çıxması üçün hər cür səy göstərəcəyik".

# İki ingilis klubu Jordi Albaya "elçi düşüb"




"Barselona"nın müdafiəçisi Jordi Alba mövsümlərarası fasilədə klubunu dəyişə bilər. Bu barədə "Diario Sport" məlumat yayıb. Məlumatda diqqətə çatdırılır ki, "Mançester Yunayted" və "Çelsi" bu futbolçunu heyətində görmək istəyir. Hər iki klub uzun müddətdi Albanı yaxından izləyir. "Barselona"nın ispan futbolçuya yeni müqavilə təklif etməməsi "Mançester Yunayted" və "Çelsi"nin marağının daha da artmasına səbəb olub.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir. "Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**